Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 50 (7777) BAZAR, 4 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Mükəmməl və demokratik seçki sistemi

Hər bir demokratik ölkədə vətəndaşların cəmiyyətin siyasi-ictimai həyatında, dövlət işlərində iştirakının ən kütləvi forması seçkilərdir. Vətəndaşların dövlətin idarə edilməsində iştirak hüquqları əsas etibarilə seçki vasitəsilə reallaşır. Seçkilərin əsas şərti isə ədalət, aşkarlıq, şəffaflıq və obyektivlikdir. Demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini bəyan etmiş Azərbaycan xalqı legitim, qanuni hakimiyyətin formalaşdırılmasının yeganə yolunu məhz şəffaf və obyektiv seçkilərdə görür.

### Mütərəqqi tələblərə cavab verən məcəllə

Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur. Bu ənənənin əsasının qoyulmasının tarixi 25 il əvvələ gedib çıxır. 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrildi. Heydər Əliyevin həmin il Prezident seçilməsi ölkəmizdə xalqın öz rəhbərinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoydu.

Ötən 25 ildə ölkəmizdə 5 prezident, 5 parlament, 4 bələdiyyə seçkisi, o cümlədən 3 dəfə referendum keçirilib. Ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə əlavə və təkrar seçkilər də təyin olunub. Hər bir seçki və referendum ölkəmizdə demokratik seçki praktikasının təkmilləşdirilməsi, seçki təcrübəsinin artırılması ilə əlamətdar olub. Seçkilərin şəffaflığını təmin etmək üçün hətta böyük demokratiya tarixi olan ölkələrdə tətbiq olunmayan mexanizmlərdən, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilib.

Demokratik ölkələrin seçki təcrubəsi göstərir ki, hər bir seçkinin uğurunu təmin edən şərtlər sırasında siyasi iradə və ictimai-siyasi sabitlik amilləri ilə yanaşı, təkmil seçki qanunvericiliyinin də olması vacibdir. Ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Əsas Qanunda təsbit olunmuş müddəalara istinadən Azərbaycanda seçkilərin hüquqi bazası formalaşdırılmışdır. Konstitusiyanın 4-cü maddəsinə əsasən xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var.

Respublikamz tarixi təkamül yolu ilə qazanılan nailiyyətlərlə kifayətlənməmiş, seçki təcrübəsinin demokratik standartlara uyğunlaşdırılması yönündə səyləri artırmış, beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini gücləndirmişdir. Azərbaycan iqtidarının siyasi iradəsi ilə 1997-ci ildən müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədilə beynəlxalq təşkilatlarla qurulmuş fəal işbirliyinin müsbət nəticələri bu nöqteyi-nəzərdən diqqəti xüsusilə çəkir. Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına (AŞ) tamhüquqlu üzv qəbul edildikdən sonra bu sahədə əməkdaşlığını daha da genişləndirmişdir. Seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində AŞ Venesiya Komissiyası da yüksək fəallıq göstərmişdir.

Azərbaycanda seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə 2003-cü ilin mayında Seçki Məcəlləsinin qəbulu bu əməkdaşlığın gözəl bəhrəsidir. Sənədin hazırlanması ilə bağlı ilk növbədə AŞ Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Beynəlxalq Seçki Sistemləri üzrə Fondla (İFES) sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. 2002-ci ilin ortalarından etibarən bu təşkilatlarla aparılan məsləhətləşmələrdən, alınan müsbət rəylərdən sonra Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. Demokratik məzmununa görə dünyanın ən inkişaf etmiş ölkələrinin seçki qanunvericiliyinə nümunə sayıla biləcək bu məcəllə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş, seçki üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların müsbət rəyi alınmışdır. AŞ Venesiya Komissiyasının və ATƏT-in DTİHB-nin sənədlə bağlı yekun rəyində Seçki Məcəlləsinin seçkilərin və referendumun keçirilməsi üçün beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun qaydalar nəzərdə tutduğu vurğulanmış, bu sənədin qəbuluna nail olmuş Azərbaycan rəhbərliyinin siyasi əzmkarlığı alqışlanmışdır.

Bütün təkmilləşdirmələrdən sonra Seçki Məcəlləsi 2003-cü ilin mayında Milli Məclisdə qəbul edilmiş və Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə qüvvəyə minmişdir. Beynəlxalq ekspertlərin birmənalı rəyinə əsasən, Seçki Məcəlləsi seçkilər sahəsində bütün qanunvericilik normalarını özündə əks etdirmiş, Avropa standartlarına uyğun tərtib olunmuşdur. Sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, həmçinin referendumun keçirilmə qaydalarını müəyyənləşdirmişdir. Seçki Məcəlləsi, eyni zamanda, Mərkəzi Seçki Komissiyasının, eləcə də dairə və məntəqə seçki komissiyalarının təsisi və fəaliyyəti prinsiplərini də özündə əks etdirmişdir. Əvvəlki qanunlarla müqayisədə Seçki Məcəlləsi şəffaf və demokratik seçkilərin keçirilməsi üçün daha möhkəm hüquqi bazisin yaradılması, namizədlərin qeydiyyatı, seçkilərə hazırlıq və seçki komissiyalarının formalaşdırılması, fəaliyyətinin təşkili prinsip və mexanizmlərinin təkmilləşdirilməsinə imkan vermişdir. Hələ 2003-cü il oktyabrın 15-də azad, demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkiləri Seçki Məcəlləsinin mütərəqqi və təkmil sənəd olduğunu tam təsdiqləmişdir.

Ardı 4-cü səh.

## Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Rumen Radevə

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Bolqarıstan arasındakı ənənəvi dostluq münasibətləri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın:

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı;

1.2. Heydər Əliyev Mərkəzi;

1.3. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi;

1.4. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi;

1.5. Azərbaycanda Atatürk Mərkəzi;

1.6. Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;

1.7. Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu;

1.8. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.9. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fondu;

1.10. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu;

1.11. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu;

1.12. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi;

1.13. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu;

1.14. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu;

1.15. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən qurumların dövlət qulluqçusu olmayan işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) vəzifə maaşlarının orta hesabla 10 faiz artırılmasını təmin etsin;

2.2. bu sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan qurumlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin;

2.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## Kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## Meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın paytaxtı Bakı şəhərində yanğın nəticəsində çoxsaylı insanın həlak olması və xəsarət alması xəbəri bizi çox kədərləndirdi.

Zati-aliləri, bu hüznlü vaxtda Sizə, qardaş Azərbaycan xalqına, həmçinin həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir və kədərinizə şərik olduğumu bildirirəm.

Həlak olanlara Ulu Tanrıdan rəhmət, onların yaxınlarına səbir diləyir, xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

Dərin hüznlə,

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Bakıdakı Respublika Narkoloji Mərkəzinin binasında çoxlu sayda insanın həyatına son qoymuş yanğın barədə faciəli xəbər Dağıstanda ürəkağrısı ilə qarşılanıb. Bütün dağıstanlılar adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının rəhbərliyinə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzu edirəm. Biz Sizin kədərinizə şərikik.

*Hörmətlə,*

***Vladimir VASİLYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri vəzifəsini müvəqqəti icra edən***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Martın 2-də Bakıda baş vermiş faciəli hadisə barədə xəbər bizi çox kədərləndirdi.

Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnmiş yanğınla əlaqədar Həştərxan vilayətinin bütün sakinləri adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığımı qəbul edin.

Sizdən xahiş edirik həlak olanların doğmalarına və yaxınlarına onların kədərinə ürəkdən şərik olduğumuzu bildirin. Sizinlə bərabər ürəkdən kədərlənirik.

*Hörmətlə,*

***Aleksandr JİLKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

## Ermənistana məxsus növbəti taktiki PUA zərərsizləşdirilib



Ermənistana məxsus növbəti taktiki pilotsuz uçuş aparatı (PUA) ələ keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 3-də günorta saatlarında cəbhənin Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) Hərbi Hava Qüvvələrimizin bölmələri tərəfindən zərərsizləşdirilib.

## Abid ŞƏRİFOV: «Komissiyanın ilk iclasında verilən tapşırıqların vaxtında yerinə yetirilməsinə ciddi nəzarət olunacaq»

Respublika Narkoloji Mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Dövlət Komissiyasının martın 3-də ilk iclası keçirilib.

Komissiyanın sədri, Baş nazirin müavini Abid Şərifov iclasda müzakirə olunan məsələlər barədə AZƏRTAC-a, Azərbaycan Televiziyasına və ATV telekanalına məlumat verərək deyib ki, yanğın baş verən zaman Narkoloji Mərkəzin həmin korpusunda 55 xəstə olub. Onlardan 25-i dünyasını dəyişib. Qalan 30 nəfər isə xilas edilib. Təbii ki, hamımız narkoloji xəstələrin vəziyyətini yaxşı bilirik və fikrimcə, bu barədə ətraflı danışmağa ehtiyac yoxdur. Belə xəstələrin özlərini sakit aparmaları üçün müəyyən iynələr vurulur. Ona görə də belə şiddətli yanğında otuz nəfəri xilas etmək çətinliklə mümkün olub. Təəssüf ki, bəzi xoşagəlməz məlumatlar yayılır ki, guya xəstələr çarpayılara bağlı olublar, həlak olanların arasında bir həkim də var. Bütün bunların hamısı əsassız fikirlərdir. Burada xəstələrin çarpayılara bağlanmasından və ya başqa belə məsələlərdən söhbət gedə bilməz. Lakin yanğın vaxtı bir həkim dünyasını dəyişib. Ancaq o, xəstəyə baxan həkim olmayıb. Sadəcə, müalicə alan xəstələrdən biri 62 yaşlı həkim olub.

Komissiyanın ilk iclasında müzakirə olunan məsələlərdən danışan Abid Şərifov bildirib ki, cənab Prezidentin göstərişinə əsasən və imzaladığı sərəncamın yerinə yetirilməsi məqsədilə biz bu gün komissiyanın ilk iclasını keçirdik. Komissiyanın qarşısında duran əsas məsələlərdən biri sözsüz ki, həlak olanların şəxsiyyətlərini müəyyənləşdirmək, onların dəfn mərasimlərini hökumət tərəfindən təşkil etmək və ailələrinə lazımi yardımlar göstərməkdir. Bilirsiniz ki, yanaraq ölən şəxslərin, xüsusilə narkoloji xəstələrin şəxsiyyətlərinin müəyyənləşdirilməsi olduqca çətin məsələdir. Çünki elə xəstələr var ki, 15-20 ildir orada müalicə alır. İndiyədək doqquz nəfərin şəxsiyyəti müəyyənləşdirilib və onlar dəfn olunub. Onların ailələrinə Bakı Şəhər İcra Hakimiyyəti və Səhiyyə Nazirliyi tərəfindən lazımi kömək göstərilib.

Ardı 4-cü səh.

# "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə sahibkarlığın inkişafının stimullaşdırılması, biznes və investisiya mühitinin əlverişliliyinin artırılması istiqamətində həyata keçirilən işləri davam etdirmək, beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının mövqeyini daha da yaxşılaşdırmaq, sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı tələb olunan prosedur və xərcləri optimallaşdırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 527) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci, 2-ci, 7-ci hissələrdə və 3.1-ci bənddə "layihə-smeta" sözləri "layihə" sözü ilə əvəz edilsin;

1.2. 2-ci hissədən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın və həmin hissədə "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

1.3. həmin fərmanla təsdiq edilmiş "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" üzrə:

1.3.1. adında və mətnində "layihə-smeta" sözləri "layihə" sözü ilə əvəz edilsin;

1.3.2. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. Büdcə təşkilatlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və aktiv istehlakçıların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması üzrə prosedur və tələblər də bu qayda ilə müəyyən edilir.";

1.3.3. 1.2.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.2.7 - 1.2.12-ci yarımbəndlər əlavə edilsin:

"1.2.7. qoşulma haqqı - ETM tərəfindən layihə sənədlərinin hazırlanmasına, ETŞ-nin gücləndirilməsinə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, elektrik qurğularının ETŞ-yə fiziki qoşulmasına (istifadə olunan mal-materiallara çəkilmiş xərclər də daxil olmaqla) görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu qaydanın 1.11-ci bəndinə uyğun olaraq müəyyən etdiyi vahid məbləğ;

1.2.8. balans mənsubiyyəti sərhədi - ETM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.9. qoşulma aktı - sifarişçinin tikinti obyektlərinin ETŞ-yə qoşulmasını təsdiq edən sənəd;

1.2.10. qoşulma nöqtəsi - bu qaydanın 3.1-1-ci bəndinə uyğun olaraq ETŞ-yə fiziki qoşulma yeri;

1.2.11. aktiv istehlakçı - elektrik enerjisini istehlak etməklə yanaşı, ənənəvi, alternativ və bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsal edən hüquqi və ya fiziki şəxs;

1.2.12. mövcud 0,4 kV-luq şəbəkə - tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazidən 400 metrdən çox olmayan məsafədə quraşdırılmış 0,4 kV-luq transformatorun mövcud olduğu elektrik şəbəkəsi.";

1.3.4. 1.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.1. sifarişçinin mərkəzlərə müraciəti, qoşulma haqqının ödənilməsi, texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və sifarişçiyə təqdim edilməsi (göndərilməsi);";

1.3.5. 1.4.2-ci yarımbənddən "layihə-smeta sənədlərinin dəyərinin ödənilməsi," sözləri çıxarılsın;

1.3.6. 1.8-ci bənd ləğv edilsin;

1.3.7. 1.9-cu bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əlavə gücün alınması üçün yeni texniki şərtlər verilərkən sifarişçi tələb etdiyi əlavə gücə uyğun qoşulma haqqı ödəyir.";

1.3.8. 1.10-cu bəndə "Sifarişçi" sözündən sonra "mərkəzlər tərəfindən" sözləri əlavə edilsin;

1.3.9. 1.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.11. Qoşulma haqqının məbləğlərini kənd təsərrüfatı və sənaye təyinatlı, habelə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət göstərən tikinti obyektləri üzrə ayrılıqda və sahibkarların tələb olunan elektrik enerjisinin gücünə mütənasib olaraq diferensiallaşdırılmış qaydada Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Qoşulma haqqı sifarişçinin tikinti obyektinin ETŞ-yə qoşulmasının 24 (iyirmi dörd) gün müddətində və daha az müddətdə həyata keçirilməsinə görə fərqli məbləğlərdə müəyyən edilir.";

1.3.10. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Sifarişçi bu qaydanın 2.1-ci bəndinə uyğun olaraq texniki şərtlərin və layihə sənədlərinin alınması üçün müraciət edərkən ETM-in bank hesabına tələb etdiyi elektrik enerjisinin gücünə uyğun olaraq qoşulma haqqı ödəyir.";

1.3.11. 2.3-cü bənddə "bu qaydanın 2.4-cü bəndinə əsasən hesablanmış vəsaitin" sözləri "qoşulma haqqının" sözləri ilə əvəz edilsin;

1.3.12. 2.4-cü, 4.3-cü və 4.5-ci bəndlər ləğv edilsin;

1.3.13. 2.9-cu bəndin ikinci cümləsində "bu qaydanın 2.4-cü bəndinə əsasən ödədiyi vəsait" sözləri "ödədiyi qoşulma haqqı ETM tərəfindən" sözləri ilə əvəz edilsin;

1.3.14. 2.10-cu bəndin ikinci cümləsindən "lazımi gücə malik" sözləri çıxarılsın;

1.3.15. 2.12-ci bənddə "7 (yeddi)" sözləri "8 (səkkiz)" sözləri ilə əvəz edilsin və həmin bəndin üçüncü cümləsi çıxarılsın;

1.3.16. 2.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.13. ETM-in hazırladığı texniki şərtlər və layihə sənədləri sifarişçiyə məlumat üçün təqdim edilir (göndərilir). Sifarişçi texniki şərtlərdə göstərilən qoşulmaya dair tələblərin yerinə yetirilməsinə görə məsuliyyət daşımır.";

1.3.17. 2.14-cü bənddə "onlara 1 (bir) gün ərzində baxılır və təsdiq edildiyi təqdirdə" sözləri çıxarılsın;

1.3.18. 2.15-ci və 2.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.15. Texniki şərtlər bu qaydanın 1 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.

2.16. Texniki şərtlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsi ilə müəyyən edilmiş tələblər və ərazi planlaşdırılma sənədləri nəzərə alınmaqla verilir.";

1.3.19. 2.17-ci bəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Həmin texniki şərtlər Azərbaycan Respublikasının Tikinti və Şəhərsalma Məcəlləsinin 77.1-ci maddəsində nəzərdə tutulmuş müddətə verilir. Bu müddətdə sifarişçi ilə ETM arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanmadıqda, verilmiş texniki şərtlər qüvvədən düşmüş hesab edilir.";

1.3.20. aşağıdakı məzmunda 2.19-cu və 2.20-ci bəndlər əlavə edilsin:

"2.19. ETM-in mərkəzlərdəki nümayəndəsi müvafiq yerli icra hakimiyyəti orqanının sorğusunu və sifarişçinin ərizəsini, müvafiq yerli icra hakimiyyəti orqanı isə sifarişçinin ərizəsini qəbul etməkdən imtina edə bilməz.

2.20. Sifarişçinin inşa ediləcək tikinti obyektinin ETŞ-yə qoşulması sifarişçi tərəfindən həmin tikinti obyektinin tikintisinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə alındıqdan sonra onun müraciətinə əsasən bu qaydaya uyğun olaraq həyata keçirilir.";

1.3.21. 3-cü hissənin adında "Layihə-smeta sənədlərinin dəyərinin ödənilməsi, tikinti-quraşdırma" sözləri "Tikinti-quraşdırma" sözləri ilə əvəz edilsin;

1.3.22. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşəcəyi torpaq sahəsindən (ETM-in müəyyən etdiyi yerdən) ETŞ-yə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini ETM həyata keçirir. Bu zaman sifarişçi bu qaydanın 1.2.7-ci yarımbəndində nəzərdə tutulan qoşulma haqqından əlavə, heç bir haqq ödəmir.";

1.3.23. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoşulma nöqtəsi tikinti obyektlərinə ən yaxın məsafədə yerləşən yarımstansiyada, transformator məntəqəsində, elektrik xəttində, paylayıcı lövhədə olmalıdır.";

1.3.24. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.3. Tikinti obyektinin ETŞ-yə qoşulması və ya tikinti obyektinin yerləşəcəyi torpaq sahəsində (ETM-in müəyyən etdiyi yerdə) ETŞ-yə qoşulma ilə əlaqədar elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri bu qaydanın 2-ci hissəsinə uyğun olaraq verilmiş texniki şərtlərə əsasən 10 (on) gün müddətində yerinə yetirilir.";

1.3.25. aşağıdakı məzmunda 3.4 - 3.7-ci bəndlər əlavə edilsin:

"3.4. Elektrik enerjisi sayğacı sifarişçinin tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin sərhədində (girişində), qidalandırıcı kabelin uclarında, ETM nümayəndəsinin maneəsiz baxış keçirə biləcəyi yerdə quraşdırılmalıdır.

3.5. Sifarişçinin sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tənzimlənir.

3.6. ETM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi elektrik enerjisi sayğacının quraşdırıldığı yerlə və qoşulma aktı ilə müəyyən edilir.

3.7. ETM ilə sifarişçi arasında elektrik qurğularının istismarına görə məsuliyyət sərhədi balans mənsubiyyəti sərhədi ilə müəyyən edilir.";

1.3.26. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Bu qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 2 (iki) gün müddətində sifarişçinin və ETM-in nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və bunun nəticəsi olaraq həmin gün ETM ilə sifarişçi arasında iki nüsxədə qoşulma aktı imzalanır, elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanır və ETM elektrik enerjisinin verilməsini təmin edir.";

1.3.27. 4.2-ci bənddə "İstismara qəbul" sözləri "Qoşulma" sözü ilə əvəz edilsin;

1.3.28. 4.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.4. ETM ilə sifarişçi arasında qoşulma aktı bu qaydanın 2 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nın 1.11-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Energetika Nazirliyinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında, sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqının məbləğlərini, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, bir ay müddətində təsdiq etsin;

2.5. məişət ehtiyacları üçün elektrik enerjisindən istifadə edən istehlakçıların tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı prosedur və müddətlərin azaldılması üçün qanunvericilikdə dəyişikliklər edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.6. məişət ehtiyacları üçün elektrik enerjisindən istifadə edən istehlakçıların tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqının məbləğini, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

2.7. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti bu fərmandan irəli gələn məsələləri həll etsinlər.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

"Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"na 1 nömrəli əlavə

**Sahibkarların elektrik enerjisi (gücü) alması üçün**

**TEXNİKİ ŞƏRTLƏR № _______**

**"_____" _______________ 20 __ il**

_______________________________________________
*(texniki şərtləri alan şəxsin soyadı, adı, atasının adı, təşkilatın adı, ünvanı)*

surəti: Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinə

_______________________________________________
*(mərkəzi idarə və ya onun yerli strukturu)*

_______________________________________________
*(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)*

Sifarişçinin tikinti obyektlərinin və ya elektrik qurğularının enerji təchizatı şəbəkəsinə qoşulması:

1. Tələb olunan güc: ____________________
2. Qoşulma gərginliyi: ______________________
3. Elektrik təchizatının etibarlığına görə kateqoriyası: __________________
4. Qoşulma nöqtəsi:

_______________________________________________
*(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti və ya paylayıcı lövhə)*

5. Quraşdırılacaq elektrik xətti: __________________________
6. Tikinti obyektində quraşdırılacaq elektrik avadanlıqları: _______________
7. Uçot cihazları: _____________________________________
8. Uçot cihazlarının quraşdırılma nöqtəsi: _________________

**Təsdiq edirəm:**

Texniki şərti verən enerji təchizatı müəssisəsi:

_______________________________________________

_______________________________________________

"__________" _______________ 20 ____ il

**M.Y.**

"Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"na 2 nömrəli əlavə

**Elektrik şəbəkəsinə qoşulma**

**AKTI**

______ ________ 20 _____ il _______ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. Enerji təchizatı müəssisəsinin nümayəndəsi

_______________________________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

2. Sifarişçi (və ya nümayəndəsi)

_______________________________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı)*

_______________________________________________
*(tikinti obyektinin yerləşdiyi ünvan)*

ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış elektrik xətləri və qurğularına baxış keçirdik. Elektrik xətləri və qurğularının layihəyə və tikinti normalarına uyğun quraşdırıldığı və elektrik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Layihə sənədi: № ______ ______ tarixində verilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin enerji təchizatı müəssisəsinin şəbəkəsinə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı: __________ __________
*(tarix) (saat)*

Enerji təchizatı müəssisəsi ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi aşağıdakı kimi müəyyən edildi:

_______________________________________________
*(balans mənsubiyyəti sərhədinin müəyyən olunduğu yer)*

_______________________________________________

İmzalar:

________________ ________________
*(soyadı, adı)*

________________ ________________
*(soyadı, adı)*

________________ ________________
*(soyadı, adı)*

**M.Y.**

# Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, Tərcümə Mərkəzinin (bundan sonra - Mərkəz) təsisçisinin publik hüquqi şəxsin inkişaf istiqamətlərinin müəyyən edilməsi səlahiyyətini Mərkəz, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan digər səlahiyyətlərini isə Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Mərkəzin nizamnaməsini, strukturunu və işçilərinin say həddini, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

2.4. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin istifadəsində olan dövlət əmlakının Mərkəz publik hüquqi şəxs kimi dövlət qeydiyyatına alındığı tarixdən bir ay müddətində onun balansına verilməsini təmin etsin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 786-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653; 2014, № 7, maddə 816; 2017, № 3, maddə 375) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 7.6-cı bəndinə "orqanlarına" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarına, publik hüquqi şəxslərə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"ni "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 832-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.7-ci bəndində "elmi tədqiqatların aparılmasını istiqamətləndirmək" sözləri "elmi tədqiqatların aparılmasını Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə istiqamətləndirmək və əlaqələndirmək" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## Mənzil-kommunal, nəqliyyat və rabitə sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq mənzil-kommunal, nəqliyyat və rabitə sahələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən mənzil-kommunal, nəqliyyat və rabitə sahələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə iqtisadiyyatın mühüm sahələrindən olan qeyri-neft sektorunun inkişafı ilə yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilmiş, əkinəyararlı torpaqlardan və mövcud su resurslarından səmərəli istifadə istiqamətində mühüm addımlar atılmış, minlərlə hektar torpaq sahəsi əkin dövriyyəsinə cəlb olunmuş və nəticədə kənd təsərrüfatı məhsullarının istehsalında davamlı artım meyilləri formalaşmışdır.

Respublikada pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalında böyük artıma nail olmaq məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və yeni suvarılacaq torpaqların istifadəyə verilməsi üçün mühüm tədbirlər həyata keçirilmiş, su anbarları, nasos stansiyaları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Görülmüş tədbirlərin davamı olaraq, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayında nasos stansiyasının və "H" kanalının yenidən qurulması nəticəsində 2017-ci ildə 4147 hektar əkin sahəsi suvarma suyu ilə təmin edilmişdir.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması layihəsi çərçivəsində tikinti işlərinin başa çatdırılması və daha 7551 hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.13-cü yarımbəndində göstərilmiş məbləğin 22 358 000 (iyirmi iki milyon üç yüz əlli səkkiz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2018-ci il*

## "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 229) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanına "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 20; 2003, № 10, maddə 585; 2008, № 8, maddə 716; 2016, № 6, maddə 1060) 2-ci hissəsinin üçüncü abzasına "11-ci maddəsində" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən baza zərfi (əsas xidmətlər) istisna olmaqla)" sözləri və "15-ci maddəsinin birinci hissəsində" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən tariflər istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında 2017-ci il aprelin 24-də Kişinyov şəhərində və iyunun 12-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Moldova Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq və bitkiçiliyin intensiv inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin və ölkədə sənaye üsulu ilə istehsal olunan biohumusun satış qiymətinə genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinin və çoxillik əkmələrin hər hektarına görə tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddinin 50 faiz, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddinin isə 5 dəfə artırılmasını təmin etsin;

2. bu sərəncamın 1-ci hissəsi ilə bağlı tədbirlərin 2018-ci ildə maliyyələşdirilməsinin "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının 1.10.1.6-cı yarımbəndində "Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər" üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilməsini, növbəti illərdə tələb olunacaq vəsaitin isə hər il dövlət büdcəsində müvafiq qaydada nəzərə alınmasını təmin etsin;

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2018-ci il*

## "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

2.1. bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı

### 1. Giriş

Bu Dövlət Proqramı "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 aprel tarixli 606 nömrəli Fərmanının icrası ilə əlaqədar tərtib edilib həyata keçirilmiş və 2013 -2017-ci illəri əhatə edən "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı"nın davamı olaraq hazırlanmışdır.

Dağınıq skleroz baş və onurğa beyninin sinir liflərinin mielin örtüyünün zədələnməsi ilə müşayiət olunan xroniki autoimmun xəstəlikdir. Bu xəstəliyə ən çox 18-45 yaşlı insanlarda rast gəlinir, lakin bütün yaş qruplarında dağınıq skleroza təsadüf edilə bilər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, nevroloji xəstəliklər arasında dağınıq skleroz cavan yaşda əlilliyin əsas səbəblərindən biridir. Bu xəstəliyə tutulmuş şəxslər xəstəliyin başlanmasından 10-15 il sonra sərbəst hərəkət etmək imkanından məhrum olurlar.

Statistik məlumatlara əsasən, hazırda dünya üzrə dağınıq sklerozdan əziyyət çəkən xəstələrin sayı 2 milyona yaxındır.

Dağınıq skleroz xəstəliyi ilə mübarizə, bir çox ölkələrdə olduğu kimi, respublikamızda da səhiyyənin aktual problemlərindən biridir. Azərbaycanda belə xəstələrin sayı 1000 nəfərə yaxındır və xəstələnmə halları ilbəil artmağa meyillidir. İl ərzində hər 100 000 nəfər əhaliyə 3-4 xəstələnmə hadisəsi qeydə alınır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 noyabr tarixli 2542 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı" çərçivəsində bu xəstələrin müalicəsi ilə məşğul olan tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, diaqnostik laboratoriyaların müasir avadanlıq və reaktivlərlə təchiz edilməsi, xəstələrin spesifik dərman preparatları ilə təmin olunması, bu sahə üçün kadrların hazırlanması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətində mühüm addımlar atılmışdır. Nəticədə xəstəliyin aşkarlanması işi yaxşılaşmış, fəsadlaşma hallarının sayı azalmışdır.

Dağınıq skleroz probleminin ölkəmiz üçün aktuallığını nəzərə alaraq, qeyd edilənlərlə yanaşı, belə tədbirlərin davamlı olaraq həyata keçirilməsinə ehtiyac vardır. "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018 - 2022-ci illər üçün Dövlət Proqramı" bu sahədə görülən işlərin həcminin və səmərəliliyinin daha da artırılmasını nəzərdə tutur.

### 2. Dövlət Proqramının məqsədi

2.1. Dövlət Proqramının məqsədi dağınıq skleroz xəstəliyinin profilaktikasının və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılmasından ibarətdir.

2.2. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

2.2.1. dağınıq skleroz xəstəliyinin diaqnostikasının və müalicəsinin yaxşılaşdırılması;

2.2.2. dağınıq skleroz xəstəliyinin ağırlaşmalarının qarşısının alınması;

2.2.3. dağınıq skleroz xəstəliyi ilə bağlı əlilliyin və ölüm hallarının azaldılması;

2.2.4. xəstələrin spesifik dərman preparatları ilə davamlı təminatı;

2.2.5. dağınıq skleroz xəstəliyinə düçar olmuş şəxslərin bərpa müalicəsinin təşkili.

### 3. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramının icrası üçün tələb olunan xərclərin maliyyələşdirilməsi müvafiq illər üzrə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində "Səhiyyə" bölməsi üzrə nəzərdə tutulmuş vəsait dairəsində həyata keçirilir.

### 4. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr

4.1. Dövlət Proqramının həyata keçirilməsi nəticəsində aşağıdakılara nail olunacağı gözlənilir:

4.1.1. dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi;

4.1.2. dağınıq skleroz xəstəliyi ilə bağlı diaqnostika işinin yaxşılaşdırılması və tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi;

4.1.3. dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin həyat fəaliyyətinin yüksəldilməsi, həmin şəxslərdə ağırlaşma hallarının qarşısının alınması və onların ömrünün uzadılması;

4.1.4. əhalinin dağınıq skleroz xəstəliyinin profilaktikası ilə bağlı məlumatlandırılması.

### 5. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **5.1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | |
| 5.1.1. | Dağınıq skleroz xəstəliyinə düçar olmuş şəxslərin vahid elektron registrdə və məlumat bazasında qeydiyyatının davam etdirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | |
| 5.2.1. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası işinin yaxşılaşdırılması məqsədilə tibb müəssisələrinin maqnit-rezonans tomoqrafiya aparatları ilə təchiz edilməsi:<br>- Şirvan Şəhər Mərkəzi Xəstəxanası;<br>- Quba Rayon Mərkəzi Xəstəxanası | Səhiyyə Nazirliyi | 2018-2019 |
| 5.2.2. | Dağınıq skleroz xəstəliyinin müalicəsinin səmərəliliyinin artırılması məqsədilə tibb müəssisələrinin plazmaferez aparatı ilə təchiz edilməsi:<br>- Akademik M.Mirqasmov adına Respublika Klinik Xəstəxanası;<br>- Kliniki Tibbi Mərkəz (Bakı şəhəri);<br>- 3 nömrəli Şəhər Klinik Xəstəxanası (Bakı şəhəri) | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.2.3. | Dağınıq skleroz xəstəliyinin mərhələsinin müəyyənləşdirilməsi məqsədilə tibb müəssisələrinin zəruri laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.3. Dağınıq skleroz xəstəliyinin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | |
| 5.3.1. | Dağınıq sklerozlu xəstələrin zəruri dərman preparatları ilə davamlı təmin edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.3.2. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | Səhiyyə Nazirliyi | 2019 |
| 5.3.3. | Dağınıq sklerozlu xəstələr üçün sanator-kurort və bərpa müalicəsinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.4. Kadr hazırlığı** | | | |
| 5.4.1. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin peşə biliklərinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.4.2. | Dağınıq skleroz xəstəliyi üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.4.3. | İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün dağınıq skleroz xəstəliyinin aşkarlanması və müalicəsi ilə bağlı treninqlərin təşkili | Səhiyyə Nazirliyi | mütəmadi |
| **5.5. Dağınıq skleroza dair maarifləndirmə** | | | |
| 5.5.1. | Dağınıq skleroz xəstəliyinə dair maarifləndirici ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.5.2. | Kütləvi informasiya vasitələrində dağınıq skleroz xəstəliyinin profilaktikasına dair məlumatlar verilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |



# 11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR



# Mükəmməl və demokratik seçki sistemi

*Əvvəli 1-ci səh.*

## Seçki prosesinin daha da təkmilləşdirilməsinə xidmət edən dəyişikliklər

Dünyanın ən demokratik ölkələrində belə seçkilərin gedişində müəyyən nöqsanların meydana çıxması bir sıra Qərb politoloqlarının elmi mülahizələrində də xüsusi olaraq vurğulanır. Hər dəfə keçirilən seçkilər seçki qanunvericiliyindəki boşluqların üzə çıxarılmasında və onların aradan qaldırılmasında mühüm rol oynayır.

2005-ci ilin fevral və mart aylarında Azərbaycan ATƏT DTİHB, habelə AŞ Venesiya Komissiyası ekspertlərinin görüşləri keçirilmiş, bu istiqamətdə geniş müzakirələr aparılmışdır. Bu müzakirələrin yekunu kimi 2005-ci ilin may ayında Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə çıxarılmış, sənədin 43 maddəsində əlavə və dəyişikliklər edilmişdir. Əlavə və dəyişikliklərə əsasən, seçki komissiyaları üzvlərinin statusu daha da dəqiqləşdirilmişdir. Dəyişikliklər nəticəsində Azərbaycan praktikasında ilk dəfə olaraq təkrar səsvermənin qarşısını almağa yönəlmiş bir müddəa, vətəndaşlara seçici vəsiqələrinin verilməsi məsələsi öz əksini tapmışdır. Bundan əlavə, seçici siyahılarının MSK-nın internet saytında yerləşdirilməsi məsələsi də qanunda müddəa kimi əksini tapmışdır. Eyni zamanda, Seçki Məcəlləsində namizədlərin qeydiyyatı proseduru da sadələşdirilmişdir.

Cəmiyyətimiz gündən-günə inkişaf etdiyi, yeni demokratik dəyərləri əxz etdiyi üçün qanunvericiliyin, o cümlədən seçki qanunvericiliyinin təkmilləşdirilməsi təbii sayılmalıdır. Bu mənala AŞ Venesiya Komissiyası ilə seçki qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə aparılan işin yekun nəticəsi olaraq 2008-ci ildə Milli Məclisin qəbul etdiyi qanunla Seçki Məcəlləsinə 90-dan artıq əlavə və dəyişikliyin edilməsi sənədin daha da təkmilləşdirilməsinə xidmət etmişdir. Seçki Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanun layihəsinə AŞ Venesiya Komissiyası və ATƏT-in DTİHB də müsbət rəy vermişdir. Həmin təşkilatların birgə rəyində təklif olunan əlavə və dəyişikliklər ölkənin seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində irəliyə doğru atılmış addım kimi dəyərləndirilmişdir.

Seçki Məcəlləsinə 2008-ci ilin dekabr, 2010-cu ilin iyun, 2011-ci ilin fevral və 2012-ci ilin aprel ayında əlavələr və dəyişikliklər edilmişdir. 2008-ci ilin dekabrında olunan əlavələr və dəyişikliklər mahiyyət etibarilə Seçki Məcəlləsinin pozulmasına görə məsuliyyətin artırılmasını və bir sıra hallarda məsuliyyətin müəyyənləşdirilməsini nəzərdə tutur. 2010-cu ilin iyun ayında Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların təşəbbüsü ilə qəbul olunan əlavələr və dəyişikliklər ilk növbədə seçki prosesinin müasir dövrdə daha da təkmilləşdirilməsinə, seçki resurslarından daha səmərəli istifadə olunmasına xidmət etmişdir. 2011-ci ilin fevralında edilən əlavə və dəyişikliklər texniki xarakter daşımış, Seçki Məcəlləsinin Konstitusiyaya uyğunlaşdırılmasına xidmət etmişdir. Seçki Məcəlləsinə 2012-ci ilin aprelində olunan dəyişikliklər isə məcəllədə referendum üzrə təşviqat qrupunun qeydə alınmasına, vətəndaşın seçki hüquqlarının pozulmasının aradan qaldırılması ilə əlaqədar olan müddətlərin qısaldılmasına yönəlib.

Ötən ilin sonlarında məcəlləyə edilmiş son dəyişikliklər isə 2016-cı ildə həyata keçirilmiş Konstitusiya islahatlarından irəli gəlmişdir.

Bütövlükdə hər bir dəyişiklik seçki institutunun daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa xidmət etmişdir.

## Qarşıdan prezident seçkiləri gəlir

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2018-ci il tarixli sərəncamı ilə prezident seçkiləri bu il aprel ayının 11-nə təyin edilib. Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiq edib. Hazırda seçki prosesinin namizədliyin irəli sürülməsi mərhələsi davam edir. Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi martın 12-si saat 18-də başa çatır.

Onu da qeyd edək ki, Konstitusiyaya edilmiş son dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının Prezidenti 7 il müddətinə seçilir.

Seçki qanunvericiliyinə əsasən, seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Beləliklə, seçkiqabağı təşviqat 2018-ci il martın 19-u başlayacaq və aprelin 10-u saat 8.00-da başa çatacaq.

Seçkilərdə kütləvi informasiya vasitələrində prezidentliyə qeydə alınan namizədlərə seçkiqabağı ödənişsiz təşviqat aparmaq məqsədilə "Azərbaycan" qəzeti daxil olmaqla bir neçə KİV-də şərait yaradılacaq.

İstənilən seçkilərin ədalətli və şəffaf həyata keçirilməsi həmin ölkədə cəmiyyətin demokratik mühitinin yüksək olması mənasını verir. Azərbaycanda vətəndaşların seçki hüquqları yüksək səviyyədə təmin olunur. Seçkilərin azad və sərbəst şəkildə həyata keçirilməsi məqsədilə kifayət qədər müasir tələblərə uyğun qanunvericilik bazası mövcuddur. Bununla yanaşı, seçkilərin keçirilməsi üçün lazımi şərait yaradılıb, seçki komissiyaları müasir texniki avadanlıqlarla təchiz edilib. Bu mənada qarşıdan gələn prezident seçkiləri bütün müasir və demokratik standartlara uyğun keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Abid ŞƏRİFOV: «Komissiyanın ilk iclasında verilən tapşırıqların vaxtında yerinə yetirilməsinə ciddi nəzarət olunacaq»



*Əvvəli 1-ci səh.*

Hesab edirəm ki, qalan şəxslərin də şəxsiyyətlərinin müəyyənləşdirilməsi bir qədər vaxt tələb edən məsələdir. Bu məsələ ilə əlaqədar aidiyyəti qurumlar, o cümlədən Baş Prokurorluq, Daxili İşlər və Səhiyyə nazirlikləri ciddi işlər aparırlar və onların da şəxsiyyətləri qısa müddətdə müəyyən olunacaq. Həlak olanların şəxsiyyətlərinin müəyyənləşdirilməsi və onların dəfn edilmələrinin təşkili bizim birinci məsələmizdir. İkinci məsələ yanğın zamanı sağ qalanların yerləşdirilməsidir. Artıq 30 nəfər ayrı-ayrı xəstəxanalarda yerləşdirilib. Onlardan 18-i evə buraxılıb.

Abid Şərifov vurğulayıb ki, qarşıda duran vacib vəzifələrdən biri də yanğının səbəblərini araşdırmaqdır. Aidiyyəti qurumlar - Fövqəladə Hallar Nazirliyi, Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən ilkin səbəb kimi elektrik naqillərində baş verən qısaqapanma versiyası irəli sürülüb. Lakin digər versiyalar da araşdırılır. Yaxın günlərdə bu barədə ictimaiyyətə məlumat verəcəyik. Cənab Prezidentin tapşırığına uyğun olaraq, görülən işlərlə əlaqədar mən daim məlumat verəcəyəm. Bütün bu məsələlərlə əlaqədar konkret təkliflər hazırlayacağıq. Yanğının səbəbləri araşdırılacaq və əgər günahkarlar varsa, cəzalandırılacaq. Artıq Baş Prokurorluq, Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri tərəfindən birgə araşdırmalar aparılır. Mən komissiyanın bugünkü iclasında aidiyyəti qurumlardan - Səhiyyə Nazirliyindən və Bakı Şəhər İcra Hakimiyyətindən xahiş etdim ki, müvafiq araşdırmalar başa çatdırıldıqdan sonra həmin bina tamamilə sökülsün və ərazidə lazımi abadlıq işləri aparılsın. Hazırda Narkoloji Mərkəzdə müalicə alan insanların yerləşdirilməsi məsələsinə gəldikdə, - Prezidentin sərəncamı ilə tanışsınız, - Sabunçu rayonunun ərazisində yeni mərkəz tikilir. Bu mərkəzin tikintisinə bir neçə il əvvəl başlanılıb. Prezident İlham Əliyev tərəfindən təsdiq olunan investisiya proqramında yeni mərkəzin tikintisinin tamamlanması üçün 5,3 milyon manat vəsait ayrılıb. Səhiyyə Nazirliyinin məlumatına görə, bu müalicə müəssisəsinin may ayınadək istifadəyə verilməsi nəzərdə tutulur. Yeni Narkoloji Mərkəz hazır olana qədər xəstələrin müalicəsi hazırkı mərkəzin digər korpuslarında davam etdiriləcək.

Baş nazirin müavini deyib ki, mərkəzdə olan xəstələrlə və dünyasını dəyişən insanlarla bağlı araşdırmalar bir həftə ərzində başa çatdırılacaq. Onların ailələrinə veriləcək ilkin yardımın məbləği, təqaüdün təyin olunması məsələləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyənləşdirilir. Azərbaycan qanunvericiliyinə əsasən, yanğın və digər fövqəladə hallar səbəbindən həlak olanların ailələrinə yetkinlik yaşına çatmayan övladları da nəzərə alınaraq birdəfəlik yardım və ya təqaüdlərin verilməsi məsələsinə baxılır. Qeyd edim ki, həlak olan 25 nəfərdən yalnız biri pensiyaçıdır. Tapşırıq verildi ki, həlak olan digər şəxslərin hər biri barədə araşdırma aparılsın və onların ailələrinə qanuna uyğun olaraq yardımlar göstərilsin. Həmçinin Maliyyə Nazirliyinə də tapşırılıb ki, yaxın günlərdə yardımları çatdırsın. Cənab Prezidentin tapşırığına uyğun olaraq, bu yardımlar Bakı Şəhər İcra Hakimiyyəti və Səhiyyə Nazirliyi tərəfindən göstərilir. Eyni zamanda, istər rayonlarda, istərsə də Bakıda dəfn mərasimləri dövlət tərəfindən təşkil olunub və olunacaq.

Abid Şərifov komissiyanın qarşısında dövlət müəssisələrində, tibb ocaqlarında inventarlaşma işinin aparılaraq xüsusi tədbirlər planının hazırlanması vəzifəsinin də qoyulduğunu bildirib. Qeyd edib ki, tədbirlər planında qəzalı vəziyyətdə binalar barədə məlumat, fövqəladə hallara, o cümlədən yanğına qarşı görüləcək tədbirlər və digər konstruktiv məsələlər əksini tapacaq.

Komissiyanın sədri bəzi KİV-də yanğınla əlaqədar əsassız iddialar səsləndirildiyini təəssüflə qeyd edib. Bildirib ki, adətən belə bədbəxt hadisələr baş verəndə ondan istifadə etməyə çalışanlar olur. Lakin ölkəmizdə həyata keçirilən genişmiqyaslı işlər, xüsusən də qaçqın və məcburi köçkünlər, valideyn himayəsindən məhrum uşaqlar üçün inşa edilən binalar və s. barədə danışmaq istəmirlər. Birinci vitse-prezident Mehriban Əliyevanın bilavasitə göstərişi ilə biz Abşeron rayonunda valideyn himayəsindən məhrum uşaqlar üçün iki korpusdan ibarət 12 mərtəbəli bina tikmişik. Həmin ərazidə üçüncü korpusun inşası bu il başa çatdırılacaq. Bu binalarda hər iki valideynini itirmiş uşaqlar yerləşdirilirlər. Bu qəbildən olan uşaqlarla bağlı iki il əvvəl qanun qəbul olundu və Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edildi. Həmin qanuna əsasən, hər iki valideynini itirmiş uşaqların təhsil haqlarının hamısı dövlət tərəfindən ödənilir. Xırdalanda tikilən həmin iki korpusdakı mənzillər təmirli olmaqla yanaşı, məişət əşyaları ilə də tam təchiz edilib. Bunu ona görə misal çəkdim ki, bu barədə danışmırlar. Həmin binada yaşayan gənclər ailə qurublar, üç il ərzində 30-dək uşaq dünyaya gəlib. Onlar bu gözəl təşəbbüsə görə daim minnətdarlıq edirlər. Bundan başqa, mətbuat nümayəndələrinə dövlət hesabına mənzillər verilir. Bütün bunlar digər ölkələrdə edilmir. Təəssüf ki, bu cür gözəl təşəbbüsləri görməzliyə vuraraq belə faciəli hadisələrdən istifadə etməyə çalışan insanlar var.

Sonda Abid Şərifov bildirib ki, komissiyanın iclasında verilən tapşırıqların vaxtında yerinə yetirilməsini ciddi nəzarətdə saxlayacağıq.

# İsmayıllıda ilk dəfə səs verəcək gənclərlə görüş olub





Respublikamız növbəti prezident seçkiləri ərəfəsindədir. Aprelin 11-nə təyin edilən seçkilərə az bir vaxt qalıb. Cəmiyyətimiz qarşıdan gələn bu mühüm kampaniyaya köklənib. Təbii ki, xalqımız inkişafın, sabitliyin, yüksək sosial rifahın və güclü dövlətçiliyin tərəfdarı olmaqla, əsl namizədə səs verəcək.

AZƏRTAC xəbər verir ki, bu fikirlər İsmayıllıda Rayon İcra Hakimiyyəti və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ilk dəfə səs verəcək gənclərlə görüşdə səsləndirilib.

Tədbirdə çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov, rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Murad Məhərrəmov qarşıdan gələn seçkilərin ölkəmiz üçün böyük siyasi əhəmiyyət daşıdığını bildiriblər.

Natiqlər həyata keçirilən dövlət-gənclər siyasətindən danışıb, gənclərin rayonun ictimai-siyasi həyatındakı fəal rolunu diqqətə çatdırıb, ilk dəfə səs verəcək gənclərin maariflendirilməsi istiqamətində görülən işlərdən söz açıblar.

Dairə seçki komissiyasının üzvü Hacıməmməd Məmmədov, polis şöbəsinin əməkdaşı Rahim Orucov və başqaları Seçki Məcəlləsi barədə iştirakçılara ətraflı məlumat veriblər.

# ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyası Azərbaycana səfərin yekunları ilə bağlı hesabat yayıb

*Hesabatda Azərbaycanda keçiriləcək prezident seçkilərinə müşahidə missiyası göndərmək tövsiyə olunur*

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) Ehtiyacların Dəyərləndirilməsi Missiyası Azərbaycana səfərin yekunlarına dair hesabat yayıb.

AZƏRTAC-ın ATƏT-in saytına istinadla verdiyi məlumata görə, hesabatda deyilir ki, aprelin 11-də keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün Azərbaycan Respublikası Hökumətinin dəvətindən sonra ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri seçkilərə hazırlığı və ölkəmizdəki seçkiöncəsi mühiti öyrənmək məqsədilə fevralın 21-22-də Bakıda səfərdə olub. Hesabatda səfər çərçivəsində keçirilən görüşlər barədə məlumat verilir.

Hesabatın nəticəsinə görə, ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyası Azərbaycanda keçiriləcək prezident seçkilərinə müşahidə missiyası göndərməyi tövsiyə edir. Həmçinin hesabatda bütövlükdə seçki prosesini izləmək məqsədilə uzun müddət üçün 30 müşahidəçinin və səsvermə günündə müşahidələr aparmaq üçün isə 280 nümayəndədən ibarət qısamüddətli missiyanın göndərilməsi tövsiyə olunur.

# Sahibkarların tikinti obyektlərinə elektrik enerjisi verilməsinin prosedurları sadələşdirilib



Azərbaycan Prezidentinin "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" fərmanına uyğun olaraq, bundan sonra sahibkarlar Mingəçevir, Sabirabad, Bərdə, Qəbələ, Masallı rayonlarında da "ASAN xidmət" mərkəzlərində mövcud və ya inşa ediləcək tikinti obyektlərinə 150 kilovata qədər mövcud 0,4 kV-luq şəbəkədən elektrik enerjisi çəkdirə biləcəklər. Qeyd edək ki, indiyə qədər sahibkarların elektrik şəbəkəsinə qoşulması Bakı, Sumqayıt, Gəncə və Quba rayonlarındakı "ASAN kommunal" mərkəzləri tərəfindən həyata keçirilirdi.

Bu mövzuda jurnalistlərə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji Araşdırmalar və İnkişaf Departamentinin rəhbəri Ramil Hüseyn, "Azərişıq" ASC-nin Perspektiv inkişaf və "ASAN xidmət"lə iş idarəsinin rəisi Elsevər Rüstəmli ətraflı məlumat veriblər.

Bildirilib ki, 150 kilovata qədər sahibkarlıq obyektlərinin mövcud 0,4 kilovoltluq elektrik şəbəkəsinə qoşulması üçün texniki şərtlər, indi yerləşdiyi rayondan asılı olmayaraq, "Azərişıq" ASC tərəfindən "ASAN kommunal" və "ASAN xidmət" mərkəzləri vasitəsilə maksimum 24 gün müddətində veriləcək. Nəzərə almaq lazımdır ki, dünyanın inkişaf etmiş bir çox ölkələrində biznes fəaliyyəti üçün elektrikə qoşulma aylarla vaxt aparsa da, Azərbaycanda sahibkarın elektrikə qoşulması prosesi 69 gündən 24 günə endirilib. Bu sahədə daha bir yenilik isə vahid pəncərə sistemi üzrə prosedurların 7-dən 3-ə endirilməsidir. Sahibkarların bu islahat prosesindən əldə etdiyi daha bir üstünlük əməliyyatların elektronlaşdırılması və məmur-vətəndaş kontaktının minimuma endirilməsidir.

"Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN kommunal" vasitəsilə əhali abonentlərinin evinin, bağının və ya həyətyanı sahələrinin elektrik enerjisi ilə təmin edilməsi prosesi bir ay öncə, bütün bölgələrdəki "ASAN xidmət" mərkəzlərini əhatə edib və hazırda qeyri-əhali abonentlərinin də elektrik şəbəkəsinə qoşulmasının ölkə üzrə təmin edilməsi aparılan iqtisadi islahatların bariz nümunəsidir.

Xatırladaq ki, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə yer alan tədbirlərdən biri (Tədbir 1.5.5) kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin müvafiq kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi ilə bağlıdır. Bu tədbirə əsasən KOS subyektlərinin elektrik təchizatı şəbəkələrinə qoşulması prosedurlarının sadələşdirilməsi, o cümlədən texniki şərtlərin verilməsi qaydalarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdiriləcək və bu prosesin tam elektronlaşdırılması üçün tədbirlər sürətləndiriləcək. Ölkə Prezidentinin bu fərmanı Strateji Yol Xəritəsində qarşıya qoyulan tədbirlərin reallaşması baxımından mühüm əhəmiyyətə malikdir.

Sahibkarların öz fəaliyyətlərinin daha səmərəli təşkili istiqamətində elektrik şəbəkələrinə daha asan qoşulması beynəlxalq indekslərin metodologiyalarında da öz əksini tapmışdır. Xüsusilə beynəlxalq ictimaiyyətin istinad nöqtəsi sayılan "Doing Business" hesabatında sözügedən sahə indikator kimi qiymətləndirilir. "Elektrikə əlçatanlıq" indikatoru kimi tanınan sahə üzrə Azərbaycanın mövqeyi ötən dövrlə müqayisədə irəliləyib. Prezident İlham Əliyevin apardığı davamlı iqtisadi islahatlar nəticəsində sahibkar-dövlət münasibətlərində prosedurların azaldılması və asanlaşdırılması qarşıdakı hesabatlarda da öz əksini tapacaqdır.

***"Azərbaycan"***

# Naxçıvanda bu ilin ilk iməciliyi keçirilib

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev deyirdi: "Təbiəti duymaq, dinləmək, onun keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən yaxşı təbiət dərsidir".

Naxçıvan Muxtar Respublikasında təbiətə qayğı ilə yanaşılır. Hər il baharın gəlişi xalqımızın min illər ərzində formalaşmış adət-ənənələrinə uyğun olaraq ağac əkməklə, səliqə-sahman yaratmaqla qarşılanır. Təbiətin oyandığı ilk günlərdən iməciliklər keçirilir, yeni meyvə bağları salınır, mövsümə uyğun aqrotexniki tədbirlər görülür. Bu ilin yazında da muxtar respublikada 200 hektara yaxın sahədə meyvə bağlarının salınması nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 3-də Naxçıvan Muxtar Respublikasında iməcilik keçirilib, yeni meyvə bağları salınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba Su Anbarının kənarında keçirilən iməcilikdə iştirak ediblər. İməcilik keçirilən 2 hektar ərazidə 1500 meyvə tingi əkilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak edib, meyvə tingləri əkib. Ali Məclisin Sədri yaz aylarında əkin işlərinin davam etdirilməsi barədə tapşırıqlar verib.

Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə 23 minə yaxın insan iştirak edib, 10 mindən artıq meyvə tingi, 2500 meşə ağacı, 2100 gül və bəzək kolu əkilib.

# Problemlər həll edilir

Söz vaxtına çəkər. Təxminən 4 il əvvəl ölkənin telekanallarının birində "Bazara həsrət Göyçay" mövzusunda xüsusi reportaj yayımlanmışdı. Oradakı satıcı və alıcılar birmənalı şəkildə şəraitsizlikdən şikayətlənir, rayona yeni, normal şəraitli bazarın lazım olmasından danışırdılar. Sözün düzü, həmin reportaja baxarkən, Göyçay kimi ənənələri ilə seçilən, bir sıra brend məhsulları ilə təkcə Azərbaycanda deyil, onun hüdudlarından da çox-çox uzaqlarda tanınan rayonda müasir bazarın olmamasına təəssüflənmişdik.



İndi bu problem həll olunub. Şəhərdə yeni bazar istifadəyə verilib. Bəzi görüləsi işlər tam yekunlaşmasa da, burada ticarət etmək üçün hərtərəfli şərait yaradılıb. Yeni bazarın sahibi, "R-Qrup" MMC-nin direktoru Rəşid Səfərovun dediyinə görə, bu ərazi sovetlər dönəmində "Avtotəmir" zavodu kimi fəaliyyət göstərib. Sonradan MMC-nin mebel istehsalı və satışının həyata keçirildiyi yer olub. 2017-ci ilin sonundan isə müəssisənin rəhbəri Göyçay şəhəri ərazisində bazar işinin təşkili ilə də məşğul olduğu üçün profili dəyişdirib. Müsahibimiz dedi ki, Göyçay şəhərində kənd sakinlərinin öz məhsullarını təmiz və səliqəli yerdə sata bilməmələri onu da həmişə narahat edirdi. Digər tərəfdən, əvvəlki bazar sanitar gigiyenik normalara cavab vermirdi. Məhsullar antisanitar vəziyyətdə - küçədə satılırdı.

Hazırkı bazarın yerləşdiyi ərazinin ümumi sahəsi 3 hektar, tikinti altında olan hissəsi 10 min kvadratmetrə yaxındır. Burada eyni vaxtda 500 nəfər alver edə bilər. Bundan əlavə, çöl tərəfdə məhsulların maşınlarda topdansatışını təşkil etmək üçün xüsusi talvarlar tikiləcək. Bazar yerləşən hissənin ikinci mərtəbəsində kafe, çayxana, uzaq rayonlardan gələnlərin rahatlığını təmin etmək üçün qonaq evlərinin tikilib istifadəyə verilməsi məqsədilə layihə də hazırlanıb. Bazarda həmçinin məhsulların Bakıya çatdırılma xidmətinin yaradılması da nəzərdə tutulub.

Bazarın ikinci mərtəbəsində müasir standartlara cavab verən, lazımi avadanlıq və mebellə təchiz edilmiş lobaratoriya təşkil olunub. Orada həm baytarlıq, həm də digər kənd təsərrüfatı məhsullarını yoxlamaq mümkündür.

Müasir sanitar qovşaqları ilə təmin olunmuş bazarda ev quşlarının satışı üçün ayrıca yer yaradılacaq. Girişə yaxın yerdə hazırlanacaq bu yer üstü örtülü olacaq və ətrafı metal torlarla bağlanacaq. Eyni zamanda qəssablar üçün tövlə tipində yerin tikilməsi planlaşdırılır. Yanında müasir kəsim sexi olacaq ki, bu da qəssabların işini xeyli asanlaşdıracaq. Yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulan bazardaxili obyektlərdən biri də kiçik soyuducu anbarıdır. Məqsəd mövsümi meyvə və tərəvəzin qış aylarında bahalaşmasının qarşısını almaqdır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Karyera sərgisində tələbələrə “Bakı Expo 2025” layihəsi barədə ətraflı məlumat verilib

“Expo 2025” Ümumdünya Sərgisinə Bakının evsahibliyi ilə bağlı layihə çərçivəsində ADA Universitetində keçirilən karyera sərgisi zamanı gənclər məlumatlandırılıb. Bu barədə AZƏRTAC-a “Bakı Expo 2025”in əməliyyat katibliyindən məlumat verilib.

Tədbirdə “Expo 2025” Ümumdünya Sərgisinin məqsədləri və təqdim edəcəyi fürsətlər barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə qeyd edilib ki, “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusuna həsr olunan “Bakı Expo 2025” layihəsi Azərbaycan gəncliyini ölkəmizin inkişafında ön plana çıxarır.

Karyera sərgisinə mindən artıq tələbə və məzun, eləcə də yüzdən çox şirkət və təşkilat qatılıb.




Bu təşəbbüs “Expo 2025” sərgisinin faydalarının daha geniş ictimaiyyətə çatdırılması və Azərbaycan gənclərinin layihənin dəstəklənməsi işində səfərbər edilməsi istiqamətində nəzərdə tutulan tədbirlərin birincisi olub. “Expo 2025” Ümumdünya Sərgisinə evsahibliyi işində Bakının namizədliyini dəstəkləmək məqsədilə bu həftə “Facebook”, “Instagram” və “Twitter” sosial şəbəkələrində yeni müsabiqəyə start verilib.

“Bakı Expo 2025” layihəsini sosial şəbəkələrdə Expo 2025 Baku Azerbaijan (Facebook), @bakuexpo2025 (Twitter), Baku Expo 2025 (Instagram) linkləri və www.bakuexpo2025.com saytı vasitəsilə izləmək mümkündür.

# Azərbaycanın inkişafı fonunda Ermənistan daha cılız görünür

Məlum olduğu kimi, Davos Dünya İqtisadi Forumunun hesabatında ölkələrin rəqabətqabiliyyətliliyi indeksinə görə Azərbaycan üç pillə irəliləyərək 80 ölkə arasında 37-ci yerdə qərarlaşmışdır. Ümumiyyətlə, ölkəmiz iqtisadi göstəricilərinə görə mütamadi olaraq son illər müxtəlif beynəlxalq reytinq agentliklərinin qiymətləndirilmələrində öndə gedir.

Artıq ilk regional inkişaf Dövlət Proqramının qəbul edildiyi vaxtdan 14 il keçir. Tərəqqinin, iqtisadi islahatların bir an belə səngiməd iyi bu illər ərzində regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan ciddi addımlar bugünkü yüksəlişə nail olmağa imkan vermişdir. 2004-cü ildə bir sıra problemlər var idi: enerji təhlükəsizliyi tam təmin edilməmişdi, əsas neft kəməri Bakı-Tbilisi-Ceyhan isə inşa edilirdi. Dövlətin başlıca hədəfi enerji təhlükəsizliyinin tam təmin edilməsi, müdafiə qüdrətinin gücləndirilməsi və müstəqilliyin daha etibarlı qorunmasına nail olmaq idi. Qarşıya qoyulan hədəflərin, qlobal iqtisadi layihələrin spektri o qədər rəngarəng və geniş idi ki, onların icrasına tam nail olmağın o qədər asan başa gəlməyəcəyi aydın başa düşülürdü.

Lakin bütün çətinliklərə və maneələrə baxmayaraq, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. Bu layihələr Cənubi Qafqazda sabitliyi möhkəmləndirdi, Azərbaycanı iqtisadiyyatın bir çox sahələri üzrə regionda liderə çevirdi, ölkənin iqtisadi və hərbi qüdrətini artırdı. Bu layihələr həmçinin beynəlxalq əməkdaşlıq formatını genişləndirməyə imkan yaratdı, Azərbaycanı regional əməkdaşlıq, enerji təhlükəsizliyi baxımından əhəmiyyətli ölkəyə çevirdi.

O illər bədnam qonşumuz da iqtisadi perspektivlərin əlçatmaz xülyaları ilə nəfəs alırdı. Amma sülhə aqressiv allergiyası və hakim faşist ideologiyasına müəmmalı beynəlxalq dəstəyi ilə seçilən bu ölkə bütün qlobal layihələrdən təcrid olundu, planlaşdırdığı islahatların əksəriyyəti kağız üzərində qaldı. Bu uzun illər ərzində yeganə ümid yerləri istismar müddəti yarım əsrə çatan və çoxdan qəza vəziyyətinə düşən Metsamor AES-in fəaliyyətinin davam etdirilməsi oldu. Bütün beynəlxalq təhdidlərə baxmayaraq, Ermənistan bu təhlükəli enerji mənbəyinin fəaliyyətini dayandırmamaq üçün illərdir ki, əldən-ayaqdan gedir, min hoqqadan çıxır. Çünki stansiya bu gün dayansa, sabah ölkəni səfalət bürüyəcək. Ermənistan üçüncü minilliyin əvvəlindən Metsamorun üstündə əsdiyi illər ərzində Azərbaycan təkcə 2004-cü ildən üzü bəri 30 elektrik stansiyası tikib istifadəyə verdi. Yeni enerji mənbələrinin gücü Metsamoru dəfələrlə üstələdi.

Bunlardan əlavə, demək olar ki, hər il min kilometrə yaxın avtomobil yolları salındı və 14 ildə bu rəqəm təxminən 12,3 min kilometrə çatdı. Bu statistik məlumata nəinki MDB, hətta Avroasiyada onlarca ölkə qibtə edə bilər. 14 ilə salınan magistral, şəhərlərarası və kəndlərarası yollar ölkənin simasını büsbütün dəyişdi, logistika imkanlarını birə on artırdı. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəhəng nəqliyyat dəhlizləri Azərbaycana imkan verdi ki, bir daha bütün dünyanı sülhə, əmin-amanlığa və beynəlxalq əməkdaşlığa səsləsin. Müharibə şəraitində yaşayan, üzun illərdir təcavüzə məruz qalan Azərbaycanın dünyanı sülhə, əməkdaşlığa çağırması isə ölkənin beynəlxalq aləmdə imicini büsbütün dəyişib, Bakını Qafqazın Cenevrəsinə çevirib. Bunun fonunda böhranın, kasıbçılığın, xəstə ərazi ambisiyalarının girdabına yuvarlanan işğalçı Ermənistan öz xalqını rejimin qulu edib.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edildikcə, yol infrastrukturu genişləndikcə paralel olaraq iqtisadiyyatın digər sahələrinin də inkişafına nail olunub. Aqrar sektoru stimullaşdırmaq məqsədilə görülən tədbirlər, yüz minlərlə hektar torpağın meliorativ vəziyyətinin yaxşılaşdırılması və yeni suvarılan sahələrin artırılması kəndlərimizin simasına əlavə çalarlar qatıb. Belə ki, bu illər ərzində çox böyük vəsait tələb edən 4 böyük su anbarı tikilib. Taxtaköprü və Şəmkirçay su anbarları ölkəmizin tarixinə ən böyük su hövzələri kimi düşüb. Su ehtiyatlarının bir qismi Ermənistan tərəfindən işğal edilən və su ehtiyatları ölkənin hüdudlarından kənarda formalaşan Azərbaycan üçün bu, çox vacib addımlardır.

2004-cü ildən bugünə qədər Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə verilən kreditlər ölkə iqtisadiyyatının inkişafına böyük dəstək olub. Bu il isə Sahibkarlığa Kömək Milli Fondunun xəttilə ayrılacaq güzəştli kreditlər əvvəlki illərdə qaytarılmış kreditlər hesabına verilir.

14 ildə qazanılan nailiyyətlər qürurvericidir. Qarşıdakı hədəflər də bir o qədər ciddi və məsuliyyətlidir. Şəhərlərarası magistral yollarla bağlı layihələr bu il də davam etdiriləcək, 40 kənd yolu layihəsi icra ediləcək. Məqsəd bütün kəndlərarası yolları müasirləşdirmək, beynəlxalq standartlara uyğunlaşdırmaqdır.

Bu il Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsi başa çatdırılacaq, digər nəqliyyat layihələrinin icrası davam edəcək. Meliorasiya ilə bağlı böyük işlər görüləcək. Belə ki, bu il təqribən 150-160 min hektar torpağa suvarma suyunun verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalında daxili tələbatın tam ödənilməsi, güclü ixrac potensialının yaradılması qarşıya məqsəd kimi qoyulub.

“Meliorasiya və Su Təsərrüfatı” ASC-nin xəttilə 2700 hektar əkin sahəsinin suvarılması üçün Yuxarı Mil kanalı tikiləcək. Neftçala magistral kanalının tikintisi 4300 hektar əkin sahəsinin suvarılmasını təmin edəcək. Sabirabad rayonunda bu minvalla əlavə 2000 hektar torpaq sahəsini suvarmağa imkan yaradılacaq. Araz çayının yeni qolunun tikintisi, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması üst-üstə 60 min hektar sahəni su ilə təmin edəcək. Bütünlükdə isə təxminən 100 min hektara yaxın yeni əkin sahələri dövriyyəyə buraxılacaq.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Soyqırımı faktlarının dünya ictimaiyyətinə çatdırılmasında gənclərin üzərinə böyük vəzifə düşür

Qubada şimal bölgəsinin fəal gənclərinin iştirakı ilə keçirilən regional konfransda erməni millətçilərinin tarixin müxtəlif mərhələlərində soydaşlarımıza qarşı törətdikləri etnik təmizləmə, deportasiya və soyqırımlarından danışılıb. AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkil etdiyi konfransın iştirakçıları əvvəlcə Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

Gənclərə məlumat verilib ki, Quba Soyqırımı Memorial Kompleksi Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılıb və 2013-cü il sentyabrın 18-də açılışı olub. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Komplekslə tanışlıqdan sonra ziyarətçilər xatirə kitabına ürək sözlərini yazıblar.

Heydər Əliyev Mərkəzində keçirilən konfransın əvvəlində soyqırım qurbanlarının və vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov Prezident İlham Əliyevin imzaladığı “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncamı ilə əlaqədar təşkil olunan tədbirin əhəmiyyətindən danışıb. Bildirilib ki, daşnak-bolşevik silahlı dəstələri mart soyqırımları zamanı on minlərlə dinc sakini etnik və dini mənsubiyyətinə görə qətlə yetirib, yaşayış məntəqələrini dağıdıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqları məhv ediblər. Ermənilər təkcə əsrin əvvəllərində deyil, bütün tarixboyu azərbaycanlılara qarşı düşmən mövqeyində olub. Həmçinin Xocalı soyqırımından da danışılıb, bu qətliamın ötən əsrin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayət aktı olduğu bildirilib.



Konfransda Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Quliyeva, AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının meneceri Samir Mehrəliyev çıxış edərək soyqırımı faktlarının dünya ictimaiyyətinə çatdırılmasında gənclərin üzərinə böyük vəzifə düşdüyünü diqqətə çatdırıblar.

Bildirilib ki, ötən əsrin əvvəllərində baş verən hadisələrə yalnız 80 il sonra adekvat siyasi qiymət verilib.1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilib.

Konfrans gənclərin mövzu ətrafında çıxışları və qarşılıqlı fikir mübadiləsi ilə davam etdirilib.

## ERMƏNİ SEPARATİZMİNİN 30 İLLİYİ



# Heç zaman yaddaşımızdan silinməyəcək

Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhəri Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış mərkəzi idi. 1990-cı ildə şəhər statusu almışdı. Dağlıq Qarabağdakı yeganə hava limanı Xocalıda yerləşirdi.



Erməni silahlı qüvvələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 22 radələrində Xocalı şəhərinə quldurcasına hücum etmiş, dinc əhalini vəhşicəsinə məhv etməyə başlamışlar. Nəticədə Xocalı şəhəri yer üzündən silinmişdir.

O dəhşətli gecənin şahidlərindən biri də Dağlıq Qarabağ Azərbaycan İcması İdarə Heyətinin üzvü, Xocalı Rabitə Qovşağının rəisi Cavid Əliyevdir. Bizimlə söhbətində C.Əliyev demişdir:

- Həmin gecə Xocalı Rabitə Qovşağında idim. İki aydan artıq idi ki, Xocalıda, eləcə də rabitə qovşağında elektrik enerjisi yox idi. Məcbur olub özüm generator gətirib onun vasitəsilə ATS-i, Xocalı aeroportunu, eləcə də rabitə qovşağını elektrik enerjisi ilə təmin edirdim. Bununla yanaşı, özünümüdafiə könüllülər dəstəsinə yazılmışdım, postlara çıxırdım. Fevralın 25-i günü mən işdə idim, SSRİ-nin 366 saylı motoatıcı alayının hərbçiləri tankları, BTR, BMP, BRDM və digər texnikaları gündüzdən gətirib şəhərin ətrafına yerləşdirdilər, Noraguh, Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad və Əsgəran yaşayış məntəqələri tərəfdən Xocalını mühasirəyə aldılar. Bunu camaat görürdü və texnika Xankəndidəki sovet ordusuna məxsus hərbi hissənin olduğundan hamı elə bilirdi ki, yəqin, əsgərlər, arada-bir olduğu kimi, təlim keçirlər. Bu barədə şəhər əhalisinə, könüllü özünümüdafiə dəstələrinin postlarına və aeroporta məlumat verdim.

Hava qarlı-şaxtalı və soyuq idi. Bir neçə gün əvvəl üst-üstə yağan qar havada sazaq yaratmışdı... Axşam saat 10 olardı, Xocalını ətraf yüksəkliklərdən mühasirəyə alan hərbi texnikanın işıqlarını biri digərinə nəyisə işarə edirmiş kimi yandırıb-söndürdülər. Çox keçmədi ki, işıqları yanıb-sönən bu hərbi texnikanın səsi, gurultusu hamının diqqətini çəkdi. Başladılar şəhəri mərmi, güllə yağışına tutmağa. Əvvəlcə Axıska türklərinin yaşadıqları qəsəbə top atəşləri nəticəsində alışıb yanmağa başladı, evlər yerlə yeksan oldu. Xankəndi tərəfdən gələn sovet tankları və BMP-lər aeroportu mühasirəyə aldılar. Top-tüfəng, avtomat və pulemyot səsləri, ölən və yaralıların iniltisi, qoca və uşaqların fəryadı qulaq batırırdı. Mühasirə daraldıqca dinc əhali məcbur olub Qarqar çayını keçib meşəyə, oradan da Ağdama üz tutdu. Ermənilər heç kimi sağ buraxmaq istəmirdilər, hər tərəfdən atəş açır, camaatı qırırdılar. Qaçan dinc əhalinin içərisində atam Ələkbər Əliyev, anam Minarə Əliyeva, bacım Təzəgül də var idi. Qaçhaqaçda atam başqa dəstədə könüllü döyüşçülər arasında, anam və bacım isə 300 nəfərdən yuxarı dəstədəydi. Əsgəranla Naxçıvanikin arasında ermənilər post qurmuşdular. Camaatı qırmaq üçün meşənin döşündən, yaxınlıqdakı donuz fermasından, eləcə də Naxçıvanik tərəfdəki postlardan aramsız atəş açırdılar. Dinc əhalini xüsusi qəddarlıqla qətlə yetirdilər. Xocalının yüzlərlə günahsız sakininin vəhşicəsinə qətlə yetirilməsi ən amansız cinayətlərdən biri idi. Erməni silahlı qüvvələrinin Xocalı və ətraf əraziləri tərk etmək iqtidarında olmayanların, demək olar, heç birinə rəhmi gəlmədi. Həlak olanların 56 nəfəri xüsusi qəddarlıqla qətlə yetirilmişdi: diri-diri yandırılmış, başının dərisi soyulmuş, boynu vurulmuş, gözləri çıxarılmış və hamilə qadınların qarnı süngülənmişdi. Anam və bacım Naxçıvanik yaxınlığında Dəhraz kəndində girov götürülmüş, üç gün saxlanıldıqdan sonra, digər bir neçə Xocalı sakini ilə birlikdə ermənilərlə dəyişdirilmişlər. Əfqanıstanda hərbi xidmətdə olmuş 30 yaşlı qaynım Canan Fərzəliyev həmin gecə şəhid oldu, Usub əmimin ailəsindən 8 nəfər itki verdi - qızı Şərqiyyə, oğlu Çingiz, həyat yoldaşı Növrəstə, gəlini Mehriban və üç uşağı, bir nəvəsi (Şərqiyyənin azyaşlı oğlu) ilə öldürüldü. Həmin gündən könüllü döyüşçülərlə gecə-gündüz çöllərdən, meşələrdən, dərələrdən don vurmuş yarımcan insanları, yaralıları və meyitləri ermənilərin zəbt etdikləri ərazilərdən çıxara-çıxara atamı da axtarırdım. 23 gündən sonra atamı Əsgəran qalasının yaxınlığında tapdım, meşədə döyüş zamanı şəhid olmuşdu. Çətinliklə də olsa meyiti gətirib Ağdamın yaxınlığında Uzundərə şəhidlər qəbiristanlığında dəfn etdik. Anam, bacım və ailəm gəlib Bakıda Novxanı bağlarında yerləşən əlvan metal zavodunun pansionatında məskunlaşdı. O vaxtdan yenə də Xocalı Rayon Rabitə Qovşağının rəisi işləməklə, həm də Xocalıda insanlığa sığmayan hadisələri dünya ictimaiyyətinə çatdırmaqla məşğulam. Bu məqsədlə ATXM-in (Azərbaycan Türkdilli Xalqlar Mərkəzi) sədri İlham İsmayılovla dünyanın bir çox ölkəsində, o cümlədən 3 dəfə Strasburqda, bir dəfə Belçikada və Türkiyənin İzmir, Ankara şəhərlərində olmuşuq, görüşlər, konfranslar keçirmişik, sərgilər təşkil etmişik, faciə və soyqırımı qurbanları barədə müxtəlif dillərdə broşürlər, kitablar, jurnallar yaymışıq.

Görüşlərdə şahidi olurduq ki, yaddaşımızdan silinməyən Xocalı soyqırımı dünya ictimaiyyətində böyük təəssüf və erməni vandalizminə qarşı nifrət hissi yaradır.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

# Kamran Məmmədovun o gecə səsi içində boğuldu, Xocalıdakı körpələr kimi...

Qarabağın qanlı-qadalı illərində daha dəhşətli qırğınlar törədilən, yer üzündən silinib yaddaşlarda daşlaşan Xocalı 26 ildir ki, nəinki bu ulu yurdun həsrətini çəkənlərin, hətta “dünyanın o başına kimi səpələnən” soydaşlarımızın dilinin əzbərinə, nənələrin ağı-bayatısına çevrilib.







Doğma yurd yerlərindən perik düşüb respublikanın əksər bölgələrinə səpələnmiş xocalılılar əsasən Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində məskunlaşıblar. “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyi Gəncə şöbəsinin rəhbəri, Xocalı rayon səhiyyə şöbəsinin müdiri Aqil Məmmədovun da ata-anası, qardaş-bacısı o dəhşətli günlərdən “salamat” çıxanlardan olub. Həmin gecənin müsibətlərini 80 yaşlı atası Kamran Məmmədov yaddaşında və dərdli-niskilli sinəsində, qəmli baxışlarında yeni nəslə çatdırır. Doğulduğu Kosalar kəndinin cəsur, qorxmaz döyüşçüləri haqqında yazılmamış, oxunmamış bir “qara dastan” başladı: “Xocalının inzibati təşkilatları, dövlət strukturları Goranboy rayonunun düşmənlə üzbəüz olan Ağcakənd qəsəbəsində yerləşir. Ona görə də xocalılılar bu qəsəbəni rayon mərkəzi kimi tanıyırlar. Yurdu yağmalananların bir qismi Göygöl rayonunun Hacıməlik qəsəbəsi ərazisində yeni salınan yerdə və Abşeron rayonundakı “Gənclik şəhərciyi” məhəlləsində məskunlaşıb”.

Aqil Məmmədov dünyaya göz açdığı Kosalar kəndinin insanlarının o müsibətlərdə nələr yaşadığını sözlə ifadə etməyə çalışdı: “Körpəlik beşiyim, uşaqlığım və gəncliyimi keçirdiyim Kosalar Qırxqız dağının qoynunda yerləşib, Xankəndi şəhərindən 14 km şimal-qərbdə, Şuşa və Laçının ərazisi ilə həmsərhəd olub. Tarixi mənbələrdən və araşdırmalardan məlumdur ki, təməli təxminən 1650-ci ildən qoyulmuş Kosalar 6 yaşayış məskənini birləşdirən kənddir. Kosalar, Başkənd, Yaloba, Cavadlar, Canhəsən, Qaragav kəndləri tarixən qəhrəman igidlər məskəni kimi tanınıb. 1904-1905-ci illərdə erməni quldurları Qarabağda milli münaqişə yaratdıqları zaman Kosalara da dəfələrlə hücum ediblər. Lakin Kosaların Qaçaq Mahmud, Avdıl Hüseyn, Ağa Əli, Rza, Pənah, Mirzalı, Qasım, Həbib, Tağı, Məşədi Cavad kimi qeyrətli oğulları öz yurdlarını qoruyaraq düşmənə mərdliklə sinə gəriblər. Kosalar da repressiya dalğasından kənarda qalmayıb. 25 nəfər repressiya qurbanı olub. Onların taleyi barədə heç bir məlumat yoxdur. 122 nəfər Böyük Vətən müharibəsinə yollanmış, onlardan 71-i ölmüş, 51 nəfəri isə Vətənə əlil və yaralı dönmüşdür”.

1992-ci ilin may ayının 9-da erməni quldurları tərəfindən işğal edilən Kosalar 383 ailədən (1380 nəfərdən) ibarət idi. Sovetliyin ərazisindəki kəndlərin işğala qədər 3 orta, 1 ibtidai məktəbi, 2 mədəniyyət evi, 1 tarix-diyarşünaslıq muzeyi, 8 klubu, 14 kitabxanası, 1 həkim ambulatoriyası, 5 feldşer-mama məntəqəsi və digər sosial obyektləri, eləcə də rabitə, poçt şöbəsi, 2 tikiş, 1 cihazqayırma, ayaqqabı, xalça kombinatının 3 toxuculuq, 1 oyuncaq sexi var idi. Birinci Qarabağ müharibəsi başlanandan Kosalar uğrunda gedən döyüşlərdə erməni quldurları həmişə layiqli cavablarını almışlar. Bu döyüşlərdə Kosaların igidləri də qəhrəmanlıqla şəhid oldu. Kosaların 2 nəfər Milli Qəhrəmanı (birinə bu fəxri ad ölümündən sonra verilib), 1 nəfər “Azərbaycan Bayrağı” ordeni, 4 nəfər “ İgidliyə görə” medalı ilə təltif edilmiş oğulları, 21 şəhid ailəsi, 49 Qarabağ əlili var.

Kosalar kəndinin ağsaqqallarından biri də Kamran Məmmədovdur. 1940-cı il may ayının 9-da Kosalarda anadan olub. Uşaq vaxtlarından əməyə alışıb, Şuşa Kənd Təsərrüfatı Texnikumunu bitirib, kolxozda təsərrüfat briqadiri kimi çalışıb. Kamran Məmmədovun sinəsi yurd dağlıdır. Dağlar qoynunda yerləşən Kosalar kəndinin ictimai-siyasi həyatında fəallıq göstərən, xeyir-şər işlərində yaxından iştirak edən Kamran Məmmədov Qarabağ müharibəsi zamanı el-obanın müdafiəsində dayanan kənd igidlərinin sırasında olub.

Hadisələr baş verən gecəsi Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevlə son telefon əlaqəsi olan Kamran Məmmədovun 4 oğlu, 1 qızı var. Vətənin keşiyində duran və qayğısını çəkən oğlanları - Kamil Məmmədov II qrup Qarabağ əlilidir. Müharibə veteranı, “Tərəqqi” medalı ilə təltif edilən, “Xocalı Soyqırımını Tanıtma” İctiimai Birliyi Gəncə şöbəsinin sədri Aqil Məmmədov Xocalı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi, Nəsimi Məmmədov Dövlət İmtahan Mərkəzi Gəncə Regional bölməsinin sədri, Ehtiram Məmmədov isə diş texnikidir.

Kamran kişi danışdıqca xəyalları dolaşır. Birtəhər yaddaşını bərpa edib deyir ki, Xocalının mühasirə illərindən Kosalar kənd məktəbində qərargah yaradılmışdı. Xocalı odlara qalanan gecə o da qərargahda olub. Hava telefonunda Qarabağın igid, cəsur oğlu, Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin səsini eşidir: “Haray çəkirdi, Xocalıya kömək istəyirdi. Gecə saat 12-ni keçmişdi. O, Xocalının od tutub yandığını bildirir, hücumun qarşısını kəsmək və ləngitmək üçün Həsənabadla Xankəndinin hədəfə alınmasını istəyirdi. Canhəsən postunda bir topla, qrad qurğusu var idi. O gecə Əlif Hacıyevin hava telefonu ilə “sizdən də bizə kömək olmadı...”- harayı Ağsu aşırımındakı milis postunda da eşidilmişdi. Qəhrəman, igid komandirin sonuncu kəlmələri də Xocalıya kömək göstərilməməsini təsdiqləyirdi. Xocalı təklənmiş, yerdən-göydən əli üzülmüş xocalılılar kimi, o gecə sonuncu harayını eşitdirdi Əlif Hacıyevin səsində, təəssüf ki, susduruldu...”

Xocalı müsibətlərindən “salamat” çıxan Xalidə və qardaşı Rauf Qəmbərovlar olublar. Xalidə Qəmbərova ilə Xocalının tarixini özündə əks etdirən Yaloba kənd tarix-diyarşünaslıq muzeyində görüşdük. Dərd insanı tez dilləndirər, amma bir nəslin yadigarı olan Xalidə Qəmbərova sanki susmağı ilə anlatmağa çalışdı gördüyü, yaşadığı, çəkdiyi müsibətləri. Bir ayın gəlini olan Xalidə xanım-xatınlıq günlərini əlindən alan o müdhiş gecədən salamat çıxmasına nəinki sevinir, əksinə, yurdu dağılan, ocağı sönən xocalılılardan danışmağın əzabını yaşayır. Bəzi məqamları ona xatırladan Yaloba kənd tarix-diyarşünaslıq muzeyinin direktoru Tofiq Məmmədov divardakı şəkilləri bir-bir göstərərək izahat verir: “Bu, yeddi nəfərini bir gecədə itirmiş ailənin başçısı Qəmbərov Qarsalan Gəray oğludur. 1941-ci ildə Xocalının Kosalar kəndində anadan olmuşdu. Onun necə vətənpərvər olmasını yalnız Xocalı sakinləri deyil, Xankəndidə erməni yaraqlıları da yaxşı bilirdi. Məktəb yaşlı nəvələri ilə birlikdə qətlə yetirilən Qəmbərova Validə Boran qızı onun ömür-gün yoldaşı idi. 50 yaşında erməni gülləsinə tuş gəldi. Qəmbərov Nadir Qarsalan oğlu da 1972-ci ildə Xankəndidə doğulmuşdu. Oradakı N.Gəncəvi adına orta məktəbin IX sinifində oxuyanda, yəni, 1988-ci ildə Xankəndidə ermənilərin “miatsum” deyib qışqıraraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə nümayişlər keçirəndə dəfələrlə daşnakların hücumuna məruz qalmışdı. Həmin ilin sentyabrında - azərbaycanlıların Xankəndidə vəziyyətlərinin ağırlaşdığı günlərdə onların da ailəsi Xocalıya pənah gətirmişdi. Nadirin böyük qardaşı Səfər isə 1963-cü ildə Xankəndidə anadan olmuşdu. Taleyinə Xocalının 25 fevral 1992-ci il müsibəti yazılanlardan oldu. O gecə Səfər, həyat yoldaşı və iki balası (1983-cü il təvəllüdlü Esmira və 7 yaşlı Emin) ilə erməni vandalizminin qurbanına çevrildilər”.

Xocalının başı üzərini qara bulud alanda Səfər qardaşı Raufla döyüşən batalyonun sıralarında idi. Ermənilərin Meşəlidən çıxarılmasında və digər əməliyyatlarda fədakarlıq göstərmişdi. Qaniçən daşnaklar Səfərin iki balasını və həyat yoldaşı Mətanəti ürəyindən vurmuşdular. Bir nəslin yeddi üzvü beləcə getdi...”

Qarsalan Qəmbərovun yeganə oğul yadigarı Raufdur. O faciəli günləri Rauf da xatırlaya bilmir. Dəhşətli günlərdə itirdiyi əzizləri və doğmalarının müsibətlərini dilə gətirməyi bacarmasa da, deyir ki, bir gecənin içində hamımız pərən-pərən düşdük. Bilmirdik ki, kim harada qalıb. Anam və gəlinimiz ağır yaralı idi. Onlara heç cür kömək göstərə bilmədiyim məni hələ də yandırır. Ailənin daha bir şəhid üzvü - Qəmbərova Mətanət Hacı qızı Xocalıya Naxçıvandan gəlin köçmüşdü. Qarabağ adət-ənənəsi ilə toyları çalınanda ağlına da gətirməzdi ki, onun ailəcanlı olduğundan, qohum-qonşularla tezliklə qaynayıb-qarışmasından, onu doğmaları kimi çox istəmələrindən daha çox müsibətindən, amansızcasına qətlə yetirilməsindən danışılacaq. İki balası və həyat yoldaşını qəfil itirəcəyinə inanmırdı...

Xocalının o gecə susdurulmuş haraylarının son zamanlar kifayət qədər eşidilməsi bir daha göstərir ki, dünya ictimaiyyəti bu haqsızlıqla həmişə barışa bilməzdi. Azərbaycanın regionda söz sahibinə çevrilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh danışıqları, beynəlxalq norma və prinsiplər əsasında öz həllini tapması üçün göstərdiyi konstruktiv mövqenin bir sıra beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən dəstək alması, “Xocalıya ədalət!” kampaniyasının daha geniş arenada keçirilməsi Qarabağın aranlı-dağlı ellərinə də qayıdacağımız günün uzaqda olmamasına əminlik yaradır.

Kamran Məmmədov “dərd yumağı”nı sarıdıqca neçə-neçə Xocalı ailəsinin başına gələn müsibətlər göz özünə gəlirdi. Dünya yola salmış el ağsaqqalının kövrəkliyi də elə bunlardandır. Onun Xocalıdakı son gecəsini xatırlamağa gücü çatmır. Amma düşmənə nifrətini də gizlətmir. Qisasın qiyamətə qalmayacağına əmindir. Deyir ki, qırılmayan son ümid sadəcə, təsəlli deyil, həm də qələbə çalmağa ruh verir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*

*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*

*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*

*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*

*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*

*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamı ilə bu ildə təntənə ilə qeyd edəcəyik. Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*

*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

## İbrət günləri

Bir qaç sənədən bəri Qafqasiyadan ayrılaraq, məmaliki-islamiyyədən tarixlərinin ən pərişan günlərini keçirməkdə olan İran ilə Osmanlıya səyahət etdim...

Son 4-5 il müddətində məzkur məmləkətlərdə ələlümum aləmi-islamda vaqe olan havadis bittəb, Qafqasiya islamlarının da marağını cəlb etməkdən xali qalamazdı. Bu kərə məmləkətimə ovdətimdə böyük əhəmiyyətini nəzəri etibarə alaraq, bu xüsusda möhtərəm qarelərlə bəzi həsbi-hallarda bulunmaq istədim.

Tarix bir çox məsələləri çoxdan bəri bir araya yığıb və kamali-surətlə həll olunmalarını istiyordu. O məsələlər ki, qonşu millətlər onları çoxdan bəri həll etmiş və irəlilərə getmişlərdir.

**Gərək iranlılar və gərək türklər də məzkur məsələləri həll etməkistədilər. Çünki başqa çarə qalmamışdı. İştə çalışdılar, vuruşdular, yıxdılar, yandırdılar, öldülər, öldürdülər. Fəqət, heyhat müvəffəq ola bilmədilər. Təbii saf vətən fikri, millət mənfəəti ilə çalışanlarla bərabər saf şəxsi qərəzlər və xəsis ehtiraslarına məğlub olanlar da var idi. Bəlkə, bu ikinci bir az həddindən fəzlə idi də**. Arada təbii olan rəy ixtilafları, ictihad qovğaları da çox deyildi. Fəqət yenə kamali-təəssüflə qeyd edilməlidir (zatən buna ehtiyac da qalmamışdır) ki, bütün bu səylər və bütün bu cəhdlər nəticəsiz qaldı, müvəffəqiyyətsizliklə qurtardı. Müvəffəqiyyətsizliklər biri digərinin ardından gəldi, nəhayət, bütün bunlar müsif nəticəsi bəlli olan Balkan müharibəsilə taclandı.

Balkan müharibəsi... buna bolqar kralı Ferdinand "Səlibin hilala qarşı hərbi" adını vermişdi. Şovinist və mütəəssib mühərrirlərdən bir çoxu da bunu "din" ilə "din" mübarizəsi və bir dinin digər din üzərinə qələbəsi şəklində təfsir etdilər. Bu kimi təfsirlərə və təfsirdən ziyadə, təhrik və təftində mətbuatın liberal adlanan məlum qismi də iştirak elədi. Halbuki məsələ meydanda idi. Mübarizə həyat qovğası idi. Kiçik Balkan dövlətləri böyümək ehtirasında idilər. Türkləri hər nə surətlə olsa da, Avropadan qovmaq istəyirlərdi. Çünki tamahları rahat qoymuyordu. Din sözləri yalmz əldə gözəl bir vəsilə idi. Qəzetələri təqib edənlərə, azadlıq naminə elani-hərb olunan Makedoniyanın bu gün nə surətlə öz azadediciləri əleyhində olduğu aşkardır.

Makedoniyalılar indi "onlar üçün qan tökən" bolqar, serb və yunan əlindən dad çəkiyor və sərahətlə bağırıyorlar ki:

*"Ki əz cəngali qorgəm dər rübudi*
*Çu didəm aqibət qorgəm to budi"**

Qırxkəlisa, Lulə-Burqas müharibələrində iştirak edən və Bulaburda yaralanan bir bolqar zabiti-əfsərilə yolda gəliyorkən vaqonda tanış olduq. Söhbətimizi Makedoniya məsələsinə nəql edincə bolqar zabiti etiraf etdi ki, "əsl həqiqət odur ki, türklər makedoniyalılara zərrə qədər zülm etməmişlərdir".

- O halda nədən Makedoniyanın məzlum millətini bəhanə edərək, "səlib" naminə hərb açdınız? - deyə sorduqda:

- Bizi rahat buraxmadılar, gəldilər ağladılar, türk zülmündən ahü-fəqanlar etdilər. Biz də inandıq. Məgərsə tamam yalanmış. Halhazırda makedoniyalılar bizi (yəni bolqarları) türklərdən çox söyür və türklər qədər sevməyirlər, - deyə cavab verdi.

Bolqar zabitinin etirafı haqqında verdiyi izahın sadəlövhanə olduğu bənəfsə anlaşılır, təbii böyük bir hərb bir-iki nəfər yalandan göz qorasını sıxan makedoniyalı ayaqyalının ağlamasma istinad etməz. Hər halda bu etirafdan anlaşılır ki, hərbin ibtidasında elan olunan səbəbləri tamamilə vahi və puçdur. Ciddi düşünənlərdən kimsəni aldada bilməz. Zatən bu onsuz da məlum olan bir keyfiyyəti daha ziyadə tənvir üçün yazıldı. Yoxsa balkanlıların tarixində adları lənətlərlə yad bulunan vəhşətkar qanlı cinayətlər işlədikləri kafidir.

Əlhasil, müharibə və müqatilə vaqe oldu və bununla bərabər hər nə denirsə-denilsin Balkan müharibəsinin hər kəsə təsiri inkar olunmaz.

İnqilablar, zəlzələlər kimi böyük vaqiələr hələ beynəlmiləl müharibələrin bütün aləm üzərindəki təsiri vazehatdandır. Binaən əleyh Balkan müharibəsinin də aləmşümul təsirə malik olduğu bədihidir. Hələ məğlubların türk və müsəlman olmalarına görə məğlubiyyətin mənəvi səbəblərini arayıb-araşdırmaq ictimai bir vəzifədir, zənn edirəm.

Rusiya xəritəsinə daxil olan millətlərin, beynəlmiləl Rusiya ailəsində mühüm və faydalı bir ünsür təşkil edə bilmələri Rusiya dövlətinin mənafei-aliyəsi iqtizasındadır. Bunu əqlisəlim sahibi ruslar da təsdiq etməkdədirlər.

Burası yaxşıca anlaşılmalıdır ki, Balkan müharibəsində məğlub olan yalnız fransızların iddiasınca alman üsuli-hərbi ilə Krupp topları və xainlərin xəyanət və ihanətilə Əhməd Muxtar Paşa kabinəsinin 120.000 əskəri müharibə qabağınca mürəxxəs etməsi, yaxud etilafçıların söylədiyi kimi "İttihad və tərəqqi" firqəsinin bütün Avropaya meydan oxuması və yaxud Qafqasiya müsəlmanlarının təsəvvür elədikləri kimi osmanlılara məxsus bəzi nöqsanlıqlar və nəzərə gələn bir çox siyasi və əskəri xətalar deyil, bunlardan əlavə, bütün islamlar üzərinə müştərək bir təsir icra edən digər mənəvi səbəblər də vardır. Bu da mədəniyyəti-islamiyyənin hazırdakı şəklidir. Tarixin unudulmuş səhifələrini varaqlamağa nə hacət, daha bükülməmiş olan vərəqlərinə baxınız: iştə Mərakeş, İran, Trablisqərb, ən nəhayət, Balkanlar - bunlar, bütün bu fəlakətlər donmuş müfəkkirləri əritməzmi? İnkar etmək olmaz ki, zikr olunan islam məmləkətlərini təxrib edən ətalət və tədənni bir dərdi-müştərəkdir, ümum müsəlmanlarının halı böylədir. **Hazırdakı islam mədəniyyəti hər yerdə və hər şərait təhtində Avropa mədəniyyəti-hazirəsilə üz-üzə gəlmişsə, haman sınmış və məğlub olmuşdur.**

Müharibələr hər vaxt top və tüfəng vasitəsilə icra edilmiyor. Biləks daima top və tüfəngli müharibələr topsuz və tüfəngsiz müharibələrdən sonra gəlirlər. **Bu silahsız müharibələr isə yalnız müxtəlif dövlətlər arasında deyil, bir yerdə olan müxtəlif millətlər arasında mövcuddur.** Bir çox mədəni, iqtisadi və ictimai rəqabətlər, mübarizələr vardır ki, silahsız müharibə adını almışlardır və silahlı müharibədən daha mühümdür. Bu kimi rəqabətlərdə də həmişə sağlam təsirlər və mürəbbi ünsürlərə malik mədəni amillər vasitəsilə tərbiyə olunan millətlər müvəffəq oluyorlar. Bir millətin məğlubiyyəti səbəblərini ancaq onun maddi xətalarında görməməlidir. Maddi səhvlər və gözə görünən xətalarla bərabər mənəvi nöqsanlar və gözə görünməyən illətləri də axtarmalıdır. Nə kimi mənəvi nöqsanlar nəticəsində İran bugünkü viranlığa üz qoymuş, Afrika islam hakimiyyətindən çıxmış və osmanlılar Avropadan qovulmuşlarsa, haman mənəvi illətlər, şübhəsiz, başqa müsəlmanların da mədəniyyət və maarif babalarında göstərdikləri ətalət və inhitatlarında mövcuddur. Onları məğlub etdirən mənəvi səbəblər özgə müsəlmanları da mədəniyyət və iqtisadca digər millətlərdən geri qoymuşdur. Binaən əleyh islam məmləkətlərində vaqe olan tarixi vaqeələrə əlim bir zərbə ilə xatimə verən Balkan müharibəsində türklərin düçar olduqları məğlubiyyətin mənəvi səbəbləri başqa müsəlmanlar üçün də ibrət günləri olmalıdır.

Bu mövzuda bəsti-məqal etməmə səbəb ziyarət və təsadüf etdiyim dostlarımdan bir çoxunun bu cəhətə çox az əhəmiyyət verdiklərini gördüyüm olmuşdur. Hər kəs "niyə osmanlılar məğlub oldu, niyə düşmən qapılarına dayandığı halda belə daxili ixtilaflardan əl götürmədilər?" - deyə sual etməsi çox haqlıdır, fəqət bununla bərabər: "Nədən müsəlmanlar hər yerdə və hər bir şərait təhtində tədənnidən-tədənniyə yuvarlanıb gediyor?" - sualını da ihmal etməməli. Bu sualın cavablarını tədqiqlə şu vaqayei-tarixiyyədən dərsi-ibrət almalı ki, ibrət günləridir.

***M.Ə.***

*"İqbal", № 377, 5 iyun 1913*

**Müsif** -təəssüf doğuran
**Təftin** - fitnə salma
* Məni canavarın cəngindən qurtardın, sonra mən anladım ki, mənim canavarım sən imişsən -red.
**Vahi** - uydurma
**Mürəxxəs** - tərxis, azad etmə
**İllət** - xəstəlik
**Bəsti-məqal** - söhbət açmaq
**İhmal etmək** - əhəmiyyətsiz yanaşmaq

## Zəruri bir izah

*(İdarəyə məktub)*

Tehranda müntəşir "Mübini-Yövmiyyə" qəzetəsi, Rövşən bəyin keçənlərdə İran haqqında verdigi bir konferansdan bəhs edərkən "Azərbaycan Cümhuriyyəti" nam risalənin müəllifi olmaq həsəbilə, acizlərini dəxi təhdimüaxizəyə (sorğu-suala) almışdır.

"Azərbaycan Cümhuriyyəti"ndən bəzi iranilərin naməmnun qaldıqlarını ağızdan-ağıza eşidiyordum. Fəqət ədəmi-məmnuniyyətin Rövşən bəyin Türk Ocağı heyəti-idarəsinin dəxi mucibi-təəssür və infial olan (coşan) heysiyyəti şikən nitqindən daha ziyadə mucibi-təəssür və əndişə olduğunu qətiyyən xatir və xəyala gətirməmişdim.

Rövşəniyə müqabilə edən "Mübin" qəzetəsi Türkiyə və Türklük haqqında qullandığı lisanı təhqirdə tərəfi müqabilinə rəhmət oxutduracaq bir məharət göstərdikdən sonra, bir taqım şikayətlərdə bulunaraq, əz-zümlə diyor ki:

"...axirən maarif nəzarətinin müsaidəsilə Rəsulzadələr tərəfindən İran əleyhində yazılan kitablar və İran azərbaycanlılarının Türk olduqlarını tərənnüm etdirmək məsələyə başqa bir əhəmiyyət verməkdədir".

Bu surətlə, münaqişəyi Rövşəni bəhsindən Rəsulzadə məbhəsinə (mövzusuna) nəql etdikdən sonra "Mübin" qəzetəsinin mühərriri bir az da bizi oxucularına tanıtmaq zəhmətinə qatlanmışdır.

Əbdi (hesablama) aciz "ilk dövreyi-məşrutiyyət"də Tehranda bulunmuş, İran bayrağının himayəsinə sığınmış, ən böyük "İraninov" qəzetəsinin baş mühərrirligi mənə tövdi olunaraq məmləkətin siyasətinə müdaxiləm caiz görülmüş və sonra İranı tərk ilə bir müddət İstanbulda oturduqdan sonra Qafqasiyaya övdət eylədigimdə ilk işim "İran ilə ziddiyyətdə olmuş və Bakıdakı Müsavat hökuməti zamanında bu "müqəvva" hökumətin rüəsasında bulunmuş, Azərbaycan ismini İrandan çalmış, şimdi də İstanbuldakı türk əfəndilərimə xoş gəlmək üçün "Azərbaycan Cümhuriyyəti" namında büllənd və balə (qosqoca) bir kitab təlif, bu kitabda Azərbaycan ismini hər iki Azərbaycana təşmil edərək, ismi kibi İran Azərbaycanının cismini çalmanın dəxi qolay bir iş olduğunu təsəvvür etmişdir".

Məntiq zəifini, söyüş qüvvətilə təviz (əvəz) edən mühərririn təzyiflərinə (saxtakarlıqlarına) qarşı müqabilə etməyi bittəbii özümə rəva görməm. Yalnız, zikri keçən vəqayenin surəti-cərəyanına aid xüsusatın pək yanlış olaraq təsbitini caiz görəmədigimdən bəzi təshihata lüzum hiss ediyorum.

**Əvvəla,** münsif iranilərin dəxi təsdiq edəcəgi vəchilə, Tehran mənə böyük bir qəzetənin mühərrirligini həvalə etmədi. Biləks, mən ilk dəfə olaraq böyük, Avropa karı və yövmi bir qəzetəyi - "İrani-nov" təsis edərək Tehranı tərk etdim.

**Saniyən,** qüvvətim yetdigi qədər İran istiqlalına hizmət eylədigim halda, məətəəssüf, İran bayrağı bəni himayə edəmədi. Və rus səfarətinin cəbiranə müdaxiləsi üzərinə, bir həftə əsnasında İranı tərk etmək zərurətində qaldım, İstanbula isə rus təzyiqindən sığınmaq üçün gəldim.

**Salisən,** "Azərbaycan Cümhuriyyəti" nam kitabımı maarif nəzarətinin müsaidəsi ilə yazmadım. Biləks senzor tərəfindən müsaidə edilib edilmiyəcəgi üzərinə pək çox düşündüm.

Bir qaç kəlmə də əsl mövzu üzərinə söyləyəlim:

Bu məqalədən də anlaşıldığı vəchilə iranlı dostlarımızın ən çox qızdıqları şey mənim azərbaycanlıların türk olduqlarını iddia edişimdir. "İran əleyhindəki iqdamatım" da qaliba bundan ibarət olacaq. Fəqət bu iddiaya qızmaqdan daha bayağı bir şey təsəvvür etməm. Bir xalqın milliyyətini tədqiq edərkən qonuşduğu lisanın əhəmiyyəti varsa, bu etibarla Azərilər Türkdür. Azərilərin fars ikən lisanları cəbrən alınıb da yerinə türkcə qonulduğu iddiasının vəxim (dəhşətli) olduğu aşikardır.

"Mübin" qəzetəsinin də zikr etdigi vəchilə nə Bakı ətrafındakı "Tat köyləri", nə də Suraxanıdakı Atəşgədə Təbriz ilə ətrafının türkcə qonuşulduğunu inkar etməzlər. Təbrizlilər bir çox saiqlər (mal-mülk) taxtında kəndilərini iranlı bilirlər. Sözün mənayi-siyasisi ilə iranidirlər də. Fəqət heç kimsə İran türklərinin dəxi mövcud olduğunu inkar edəməz. Bir İran Türklügü vardır, Azərbaycanlılar türkcə söylüyorlar. Təbriz ilə həvalisindəki xalq ədəbiyyatı, folklor, xalq lisanı, xalq adət və əxlaqı Bakı ilə Gəncə ətrafındakılardan başqa degildir. Aşıq Kərəm ilə Koroğlu dastanları Qafqasiya ilə Anadoluda olduğu kibi, İran Azərbaycanında da mütədavildir. "Dədə Korqud"un lisanı bu gün Erivan ilə Təbrizdə söylənən lisandan pək də fərqli degildir.

Bütün bunlara cavab almaq üzrə "Çingizin təbrizliləri fars ikən türk yapmağını" söyləmək qədər qeyri-ciddi bir cavab təsəvvür olunamaz. Hələ "kəndilərini Çingizə mənsub bilənlərin təbrizlilərin intiqamından (kəndilərini türkədd etməzlərsə) qorxutduqları" kibi mülahizələr məntiqi bir cavab olmaq üzərə on para etmədigi kibi bir "şahıya" da dəyməz.

Vaxtilə qardaş İran xalqının hürriyyət və istiqlalpərvəranə mücadilatına əlimizdən gələn qədər müavinətdə bulunduq. Sıra kəndi məmləkətimizə gəldi. Onun xilası üçün çalışırıq. Bildigimiz və bacardığımız kibi mübarizə etdik. Bu mübarizədə iranlı qardaşlarımız bizə ümid etdigimiz müavinəti göstərmədilər. Bəlkə də məzur idilər. Fəqət zülüm və istibdadını pək çox daddıqları və hala da dadmaqda olduqları Rusiya kibi ənud bir düşmənə qarşı məruz qaldığımız fəlakət üzərinə "Mübin"lərin yaralarımıza duz tökəcəklərini də qətiyyən ümid etməzdik.

Fəqət İran əfkari-ümumiyyəsi üzərindəki mövqeinin nə olduğunu bilmədigimiz "Mübin" qəzetəsinin nəşriyyatı zənn etməyiz ki, mütəfəkkir iranilərin dəxi iştirak edəcəgi bir lisan olsun. Nasıl ki, Rövşənin lisanı dəxi "Varlıq" qəzetəsinin söylədigi kibi, ciddi türk əfkari-ümumiyyəsinə tərcüman olamaz.

***"Azərbaycan Cümhuriyyəti" nam əsərin müəllifi***
***Rəsulzadə Məhəmməd Emin***
***"Yeni Qafqasiya" məcmuəsi, noyabr1923, №4***

Mübin - aydınlaşdırma, aşkara çıxarma
Yövmiyyə - gündəlik
Rəbiül-axər -müsəlman qəməri ilinin dördüncü ayı
Əbd - hesablama

**Qeyd: M.Ə.Rəsulzadə bu məktubu Tehrana - "Mübini-yövmiyyə" qəzeti redaksiyasına göndərib. Görünür, qəzet onu dərc etməyib. Ona görə də müəllif onu "Yeni Qafqasiya" məcmuəsində dərc etdirib. - Ş.H.**

P.S. *Məqalələri redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib.*




## Novruz bayramı:

### birlik, bərabərlik və tarixilik paradiqması

Bayram öz strukturuna görə, kütləvi hadisədir. Bayram bir şəxsin deyil, toplumun və yaxud toplumların bir araya gəlməsinə rəvac verən vasitədir. Toplumlar ənənəvi formada keçirdikləri bayram tədbirləri əsasında daha sıx şəkildə yaxınlaşır, etnik-milli, ictimai-sosial inkişafın maddi-mədəni dəyərlər səviyyəsində meydana çıxmasına şərait yaradırlar. Bayram böyük mədəni dəyərləri özündə cəmlədikcə daha da kütləviləşir, dünyəvi-bəşəri inkişafın əsas vasitələrindən birinə çevrilir.

Xalqımızın ən erkən dövrlərdən keçirməyə başladığı Novruz bayramı da yaşı bilinməyən mərasimlər məcmusundan ibarətdir. Novruz bayramı haqqında mənbələrdə diqqət çəkən məlumatlar yetərincə çoxdur. Əbu Reyhan Biruni, Mahmud Kaşqarlı, Balasaqunlu Yusif, Ömər Xəyyam, Nizaülmülk, Nizami Gəncəvi, M.Füzuli və digər alim və şairlərdən tutmuş ən müasir elmi bədii örnəklərdə Novruz mərasimləri haqqında zəngin məlumatlara rast gəlmək mümkündür. Bizim məqsədimiz Şirvanda keçirilən Novruz mərasimləri olduğundan bu örnəklərə daha əhatəli diqqət çəkməyə çalışmırıq. Lakin əsas olaraq onu da qeyd etmək lazımdır ki, Novruz regional əhatə ilə məhdudlaşdırılmayacaq dərəcədə çox geniş əraziləri öz içərisinə alan möhtəşəm bir mərasimlər üzərində dayanan sistemli bayramdır. Xüsusilə də türk xalqları arasında keçirilən Novruz bayramı və bu bayrama qədər yaşanan kütləvi tədbirlər ayrı-ayrı bölgələrdə bir-birini tamamlayan, bir-birindən bir o qədər də fərqlənməyən eyni struktur üzərində inkişaf etməkdədir. Lakin Novruzun regional səviyyədə araşdırılması onu kiçiltmək, bir bölgəyə çəkmək məqsədi daşımır. Əksinə, məhəlli xüsusiyyətlərin adət səviyyəsində Novruza rəng qatan cizgilərinin araşdırılması onun daha da zəngin səviyyədə ictimai-kütləvi auditoriyaya təqdim olunmasına rəvac verir.

Azərbaycanda keçirilən Novruz mərasimləri mənbələrdə xüsusi diqqət çəkir. Hələ 1637-ci ildə Şamaxıda olmuş, Novruz bayramında şəxsən iştirak etmiş alman səyyahı Adam Oleari Novruzun gəlişinin xüsusi bir təntənə ilə qeyd edildiyini həyəcanla yazırdı: "Atralaq stolun arxasında tez-tez öz üstürlabı ilə günəşi müşahidə edir, saata baxır, beləliklə, günəşin gecə ilə gündüzün bərabərlik nöqtəsinə çatdığı anı müşahidə edirdi. Elə ki, gözlənilən dəqiqə çatdı, o ucadan yeni ilin gəlişini elan etdi. Dərhal yaylım atəşi açıldı. Şəhərin qala divarları və qara ney çalındı, təbillər səsləndi. Beləliklə də böyük şənlik bayramı başlandı".

Göründüyü kimi, alman səyyahı hələ XVIII əsrdə Novruzun Azərbaycanda təntənəli təqvim mərasimi olduğunu diqqətə çatdırmağa çalışmış, onun xüsusi kütləvi əhval-ruhiyyə əsasında keçirildiyini qeyd etmişdir.

Azərbaycanda Novruz mərasimi haqqında maraqlı məlumatlardan xəbər verən mənbələrdən biri də R.Xəlilov və A.Xürrəmqızının elmi-kütləvi ictimaiyyətə təqdim etdiyi 1928-ci ildə Ə.Paşabəylinin "İlaxır çərşənbəsi" məqaləsidir. Tədqiqatçıların qeyd etdiyi kimi, "bu məqalədə ilaxır çərşənbələr barədə Azərbaycanın müxtəlif regionlarında icra olunan bayram mərasimləri barədə müfəssəl informasiya var".

Şirvan regionunda keçirilən Novruz haqqında Ə.Paşabəyli yazır: "İlin axır çaharşənbəsinə aid olaraq aşağıda göstərilən adətlər Göyçay qəzasının müxtəlif yerlərində və Şəki qəzasının Qutqaşen dairəsində məşhurdur.

İlin axır çaharşənbəsi çillə biçənin axırıncı çaharşənbəsidir. Buna da yerli əhali ilin axır çaharşənbəsi deyir.

Həmin axırıncı çaharşənbəyə M.N.Marrin Mirzə Məhəmməd Kirmanidən etdiyi tərcüməsində "çaharşənbeyi çərxi" deyilir...

Onlar qışı üç yerə bölürlər: Birinci Böyük çillə, ikinci Kiçik çillə və üçüncü çillə Biçə. Dekabrın 22-dən fevralın 2-nə kimi Böyük çillə, fevralın 2-dən 22-nə kimi Kiçik çillə və fevralın 22-dən martın 22-nə kimi çillə Biçə olur.

Həmin çaharşənbə də həmişə martın 22-dən 2-3 gün əvvəl olur.

Bu gündə cürbəcür adətlər vardır...

...Qulaq falına baxmaq, yəni, istər yoldan keçənlərin, istərsə də gedənin dalında, yaxud da başqa bir yerdə duraraq digərinin birinci sözünü eşitmək istərlər. Bundan başqa, qulaq falları vardır:

I. Bəzən yemək zamanı loğma dik bir ləvində durur. O zaman həmin loğmanı dilin altına qoyuruq. Qonşunun, istər başqasının birinci sözünü eşitmək üçün qulaq asırlar.

II. Bir əldə su (su sərnic, dolça kimi qablarda olur), digərindən güzgü ilə təsbeh olaraq yenə də başqasının birinci sözünü dinləyirlər.

İlin axır çaharşənbəsindən başqa çillə Biçədə müəyyən qaydalar vardır:

Axır çaharşənbəyə qədər olan dörd çaharşənbədə (çillə Biçə düzgün olduğundan dörd həftəyə malikdir) hər axşam od qalayıb üzərindən tullanırlar. Buna yerlilər "pilənbər" deyərlər. Çillə Biçədəki dörd çaharşənbəni yerli əhali dörd cismə məxsus deyə tələqqi edənlər, yəni, bu çaharşənbələrin hər biri bir cismə aid olurmuş.

Məsələn: birinci çaharşənbə havaya, ikinci çaharşənbə suya, üçüncü çaharşənbə torpağa, dördüncü çaharşənbə ağaca düşürmüş. Hər çaharşənbənin bir şeyə aid olması o çaharşənbəyə düşən cismin dirilməsi, canlanması, istiləşməsi deməkdir...

Göyçay şəhərindən 2 kilometr aralı Şahadət kəndinə yaxın iri bir ağac vardır. Bu ağaca çillə xona deyərlər. Ağacın yerdən təxminən 1 metr yuxarı ortasında boş bir dairə kimi yeri vardır" ("Dədə Qorqud" jurnalı elmi-ədəbi toplu, 1-ci sayı 2009-cu il).

Bu məqalədən ona görə geniş iqtibas etdik ki, yuxarıda göstərilən adətlərin əksəriyyəti bu gün Şirvanda mövcuddur. Elə məqalədə də bu adətlərin əsasən Şirvanda qeydə alınması xüsusi diqqət çəkir. Lakin onu da qeyd edək ki, Novruzun strukturunda mövcud olan dörd iqlimin çərşənbələr şəklində verilməsi çox diqqətçəkicidir.

Çərşənbələrdə hər həftə od qalanmasına baxmayaraq, hərə öz adı ilə məşhurdur.

1. Su çərşənbəsi
2. Od çərşənbəsi
3. Külək (hava) çərşənbəsi
4. Torpaq çərşənbəsi

Lakin onu da qeyd edək ki, nə əhali arasında, nə də geniş elmi tədqiqatlarda hansı çərşənbənin hansı həftə olması o qədər də aydın deyil, əksinə mübahisəlidir. Bəziləri suyu, bəziləri odu birinci yerə qoyur və bu qayda ilə sıralamağa çalışırlar. Elə bunun özü də Novruzun çox qədim mərasimlər yığnağı olmasından xəbər verir. Od, su, hava və torpaq ünsürünün fəlsəfi mahiyyətinə varmadan onu da qeyd edək ki, əhali çərşənbələrin bu dörd ünsür üzərində keçirilməsinə çox ciddi əhəmiyyət verir. Təbiidir ki, bu ünsürlərin araşdırılması xüsusi elmi tədqiqat tələb edir.

Novruz adətləri bununla yekunlaşmır. Novruza hazırlıq mərhələsi xüsusi təntənə ilə keçirilir. Hələ bayrama bir neçə həftə qalmış səməni göyərdilir, evlər təmizlənir, torpaq bellənir, sanki əhdi çox sayğıdəyər bir babanın - yaz babanın gəlişini qeyd edir.

Novruz bayramının gəlişinə az qalmış - ilin axır çərşənbəsində şəkərbura, paxlava, şorqoğalı adlanan şirniyyatlar bişirilir. Yumurtalar əsasən soğan qabığı qaynadılaraq qırmızı rəngə boyadılır. Bütün əhali xüsusi ruh yüksəkliyi ilə bayrama hazırlaşır.

Novruz bayramının ən gözəl çağı Novruz gününün özüdür. Ona baxmayaraq ki, Novruza həftələrlə hazırlıq işi görülür, lakin xüsusi təntənə Novruz gününün özü olur. Təbiidir ki, bunun mənası da aydındır. Bayram gününə qədər olan hazırlıq o günün yerini tuta bilməz. Axı, bütün hazırlıqlar elə həmin gün üçündür. Elə buna görə də təsadüfi olmadan Novruza türk xalqları yeni gün, mənbələrdə yengi gün, farslar isə Nov (yeni) rus (gün) deyirlər.

Novruz bayramında qapılar açıq qoyulur, həm bahar havasının qutlanması, həm də qapıya gələcək insanlara şirniyyat, qoz-fındıq, badam, və s. paylanması üçün sanki yol gözləyirlər. Əhalinin maddi durumunun hansı səviyyədə olmasına baxmayaraq, Novruz adətlərini unutmurlar. Evdə bir ovuc da olsa fındıq, qoz saxlanılır, bir qab da olsa qoğal-şirniyyat bişirilir. Novruz adətlərindən Şirvanda ən geniş yayılmış kütləvi hadisələrdən biri də uşaqların sevinc içində Novruzu qeyd etməsidir. Uşaqlar üçün yumurtalar boyadılır, uşaqlar bu yumurtaları götürüb bir-birilə döyüşdürür, bəxtlərini yumurtada sınayırlar. Təbiidir ki, bunun çox qədim mifoloji anlayışlarla bağlılığı vardır. Yumurta sınanması törəyiş aktını simvolizə edir. Məşhur atalar sözü kimi işlənən "bəxtini qozda sına" paremisi Novruz bayramında qoz-fındığın bol olmasına baxmayaraq, sanki öz qüvvəsini itirir, "bəxtini yumurtada sına" anlayışı meydana çıxır.

Novruz bayramında papaqatma adəti bu gün də öz qüvvəsini saxlayır. Xalq arasında buna qurşaq atmaq və yaxud qeyd etdiyimiz kimi papaq atmaq, bəzən də torba atmaq deyilir. Təbiidir ki, bu deyimlər arasında papaq atmaq deyimi daha müasirdir. Elə buna görə də daha çox işləkdir.

Qapılar papaq atılmasından ötrü açıq qoyulur, papaq atılarkən papaq atan kəs el adətinə uyğun şəkildə özünü gizlədir, ələ vermir. Onun özünü gizlətməsi niyyətdən deyil, adətdəndir. Papağa şirniyyat, qoz-fındıq qoyulur və astanaya buraxılır. Papaq yiyəsi dolu papağı götürür. Papaq yiyəsini güdmək və ya tutmaq qəbahət hesab edilir.

Novruz bayramından yazmaqla tükənməz. Novruz adətləri çox geniş tədqiqatların mövzusu olaraq açıq qalır. Son dövrdə tərəfimizdən "Novruzun strukturu: Arxaik ritual, təqvim və bayram" əhatəli tədqiqatı onun ən qədim dövrdən bu günə kimi inkişaf etməkdə olan dinamikasının tədqiqi baxımından çox qiymətli mənbədir. Arzu edirik ki, Novruzun araşdırılması yenə də davam etsin və xalqımızın milli mədəniyyətində ciddi yer tutan bu mərasimlər haqqında aparılan araşdırmalar onun qiymətini diqqətə çatdırsın. Çünki Novruzun ritualdan mərasimə keçidi, mərasimlərin adətlər səviyyəsində öz mühafizəkarlığını saxlaması rəmz və simvol baxımından tədqiqi tələbatı və əsasən də toplumun kütləvi şəkildə bir araya gəlməsinə rəvac verməsi onun çox əhəmiyyətli hadisə olmasından xəbər verir.

***QALİB SAYILOV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Multikulturalizmin Azərbaycan modeli Romada təqdim olunub

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Romada İtaliya Nazirlər Şurası İnstitusional Tədqiqatlar və Münasibətlər Ofisinin rəhbəri Anna Nardini, Daxili İşlər Nazirliyinin Mülki Azadlıqlar və İmmiqrasiya Departamenti müdirinin müavini Karmine Valente, İslam Mədəniyyəti Mərkəzinin İdarəetmə Şurasının sədri, İtaliya parlamentinin üzvü Xalid Çaouki və İtaliya Yəhudi İcmaları İttifaqının prezidenti Noemi di Segni ilə görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, görüşlərdə şöbə müdiri Azərbaycanın dövlətdin və millətlərarası münasibətlər məsələləri ilə bağlı siyasəti, ölkəmizdə tarixən multikultural ənənələrin mövcud olması, müxtəlif dini və etnik icmaların sülh şəraitində yaşaması, xüsusən də müasir dünyada dini və milli zəmində baş verən münaqişələrin fonunda multikulturalizmin Azərbaycan modelinin xüsusi əhəmiyyət kəsb etməsi barədə məlumat verib.

İtaliya rəsmiləri dövlətdin və millətlərarası münasibətlər məsələləri ilə bağlı İtaliyanın siyasəti və təcrübəsi barədə məlumat verib, Azərbaycan tərəfinin sözügedən sahələrdə böyük təcrübəsinin öyrənilməsinə maraq göstərdiklərini söyləyiblər.

Səfər çərçivəsində Etibar Nəcəfov İtaliyanın nüfuzlu Sapienza və Link Kampus universitetlərində də olub. O, Sapienza Universitetində Sapienza Fondunun prezidenti Antonello Biacini, Link Kampus Universitetində isə bu ali təhsil müəssisəsinin rektoru, İtaliyanın sabiq xarici işlər və daxili işlər naziri Vinçenzo Skotti ilə görüşlər keçirib. O həmçinin hər iki universitetdə tələbə-magistr və professor-müəllim heyəti qarşısında "Multikulturalizm Azərbaycanın dövlət siyasəti kimi" mövzusunda mühazirə ilə çıxış edib.

Şöbə müdiri mühazirəsində ölkəmizdəki multikulturalizmin tarixi kökləri, mövcud vəziyyəti, bu sahədəki dövlət siyasəti və multikulturalizmin qanunvericiliklə tənzimlənməsi, habelə multikulturalizmin Azərbaycanın daxili və xarici siyasətində əks olunması haqqında ətraflı məlumat verib və onların suallarını cavablandırıb.

Mühazirə çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən ingilis dilində hazırlanmış "Azərbaycan: Tolerantlıq diyarı" adlı videoçarx nümayiş etdirilib.

Etibar Nəcəfov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nəşr etdirdiyi "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" və "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitablarını İtaliya rəsmilərinə, həmçinin universitetlərin kitabxanalarına təqdim edib.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# “AZƏRBAYCAN” – 100

# 7777






Bu gün rəsmi dövlət qəzeti “Azərbaycan”ın 7777-ci nömrəsi işıq üzü gördü. Qəzet 1918-si ilin 15 sentyabrında Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı kimi fəaliyyətə başlayıb. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə qəzetin 443 nömrəsi dərc edilib. 1920-ci ildə cümhuriyyətin süqutu ilə “Azərbaycan” qəzetinin fəaliyyəti də dayanıb. Yalnız 72 ildən sonra - 1992-ci il sentyabrın 23-də müstəqil Azərbaycan Respublikasının Ali Sovetinin orqanı kimi yenidən fəaliyyətə başladı. Həmin tarixdən “Azərbaycan” qəzeti 444-cü nömrəsi ilə dərc edildi.

“Azərbaycan” qəzetinin 7777 nömrəsi sırasında cümhuriyyət dövrünün 443 nömrəsi də yer alıb. Müstəqilliyimizin atributu kimi bu gün “Azərbaycan” qəzeti Azərbaycan Respublikasının uğurlarını dolğun, ətraflı şəkildə işıqlandırır, dövlətçiliyə ləyaqətlə xidmət edir.

## Martın 5-i Bədən Tərbiyəsi və İdman Günüdür

# İdmana qayğı dövlət siyasətinin prioritetlərindəndir

Sağlamlığın qorunması və möhkəmlənməsində, gənclərin fiziki inkişafında, ölkənin idman şərəfinin beynəlxalq aləmdə daha da uca tutulmasında bədən tərbiyəsinin əhəmiyyətini və rolunu nəzərə alan Azərbaycan Prezidentinin 2005-ci il 4 mart tarixli sərəncamı ilə hər il martın 5-i ölkəmizdə “Bədən Tərbiyəsi və İdman Günü” kimi qeyd olunur.



Qüvvədə olan “Bədən tərbiyəsi və idman haqqında” qanun bu sahədə fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin əsas prinsiplərini müəyyən edir, hər kəsin bədən tərbiyəsi və idmanla məşğul olmasına imkan yaradır.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr idmanda ölkəmizə böyük imic qazandırıb. Bu bayram günündə idmanımızın ötən bir ildə keçilmiş yoluna nəzər salsaq, böyük nailiyyətlərlə əlamətdar olduğunu görərik.

Atletlərimiz müxtəlif yarışlarda olimpiya və qeyri-olimpiya idman növləri üzrə ölkəmizi şərəflə təmsil ediblər və Azərbaycanın idman şöhrətini qaldırıblar. Ötən il idmançılarımız iştirak etdikləri 234 müxtəlif beynəlxalq yarışlarda 851 medal qazanıblar. Bunlardan 347-nin əyarı qızıl, 236-sı gümüş, 268-i isə bürüncdür.

Ölkəmizdə 55 beynəlxalq idman tədbiri keçirilib ki, bunlar içərisində IV İslam Həmrəyliyi Oyunlarını xüsusilə vuğulamaq lazımdır. Müsəlman dünyasının 54 ölkəsindən 3 mindən çox idmançının qalib adı uğrunda gərgin mübarizə apardığı yarışda atletlərimiz doğma divarlar arasında daha bir möhtəşəm nəticələrə imza atdılar. 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla, 162 medal qazanan Azərbaycan IV İslamiadanı rekord göstərici ilə birinci pillədə başa vurdu.

2017-ci ildə ölkəmizdə təşkil edilən nüfuzlu turnirlər sırasında “Formula-1” yarışlarını xüsusilə qeyd etmək lazımdır. Yüz milyonlarla izləyici kütləsinə malik olan “Formula-1” yarışlarının həyəcanı sayca 2-ci dəfə Azərbaycanda yaşandı. Planetin bir nömrəli avtomobil yarışında sürət həvəskarları dünyanın ən məşhur pilotları Luis Hamiltonun, Fernando Alonsonun, Sebastian Vettelin, Valtteri Bottasın, Maks Ferstappenin və digərlərinin Bakı Şəhər Halqasında gərgin və maraqlı mübarizəsinin şahidi oldular.

Sevindirici məqamlardan biri də odur ki, bu il komanda idman növlərində də uğurlu nəticələr əldə edilib. Bunun ən böyük nümunəsi kişilərdən ibarət şahmat yığmamızın Yunanıstanda təşkil edilən Avropa çempionatında qızıl medal qazanmasıdır. Turnirin 9-cu turunda komandamız Ukrayna yığması ilə görüşüb. Oyun 2:2 hesabı ilə yekunlaşıb. Azərbaycan-Ukrayna matçında Şəhriyar Məmmədyarov-Pavel Elyanov, Teymur Rəcəbov-Yuri Krivoruçko, Arkadi Naydiç-Ruslan Panomaryov və Rauf Məmmədov-Yuri Kuzubov görüşləri heç-heçə yekunlaşıb. Bununla da şahmatçılarımız turniri 14 xalla başa vurublar.

Ötən il voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsinin əksər oyunları Bakıda keçirilib. Ölkəmiz turnirə qonşu Gürcüstanla birgə evsahibliyi edib. Qadın voleybolu tarixində ilk dəfə post-sovet məkanında təşkil olunan turnirin oyunları Azərbaycanın iki şəhərində - Bakı və Göygöldə, eyni zamanda, Gürcüstanın paytaxtı Tbilisidə təşkil edilib. Qadın voleybolçularımız Avropa çempionatının final mərhələsində mükafatçılar sırasına düşmək şansını son matçda- 3-cü yer uğrunda görüşdə Türkiyə seçməsi ilə qarşılaşmada əldən versə də, nümayiş etdirdikləri oyunla könüllərin çempionu olduqlarını göstərdilər.

Sonuncu turda Almaniya yığmasını 3:1 hesabı ilə məğlub edən Rusiya komandası da xallarını 14-ə çatdırıb. Əlavə əmsallara görə, yekunda Azərbaycan yığması turnir cədvəlində ilk yeri tutaraq Avropa çempionu adını qazanıb. Rusiya ikinci, Ukrayna komandası üçüncü yeri tutub. Sayca 3-cü dəfə Avropa çempionu olan zəka sahiblərimiz həm ölkənin, həm də qitənin şahmat tarixinə yeni qızıl səhifə yazdılar.

Eyni zamanda, Ağdamın “Qarabağ” futbol komandasının Avropanın ən nüfuzlu klub turniri UEFA Çempionlar Liqasında qrup mərhələsinə vəsiqə qazanması bundan sonra komanda idman növlərində nailiyyətlərin daha da davamlı olacağına inamı artırıb. Qrup mərhələsində nümayiş etdirdiyi oyunlarla və qazandığı xallarla dünyada böyük əks-səda doğuran “Qarabağ” dünya nəhənglərinin yer adlığı C qrupunda İspaniyanın “Atletiko” (Madrid) klubundan evdə (0:0) və səfərdə (1:1) xal alaraq ölkə idman tarixində növbəti rekorda imzasını atıb.

Göründüyü kimi, Azərbaycanın idman potensialı ildənilə daha da güclənir. Hər il beynəlxalq yarışlarda yüzlərlə medal qazanılır. İdmançılar müxtəlif beynəlxalq turnirlərdə yüksək nəticələr əldə edirlər. Bu isə onu göstərir ki, təmsilçilərimizin uğurları təsadüfi xarakter daşımır. Azərbaycan dövləti xalqın, ilk növbədə, böyüməkdə olan nəslin fiziki-mənəvi sağlamlığının təmin olunması naminə idmanın inkişafını diqqətdə saxlamaqla yanaşı, ölkənin idman imicinin yüksəlməsinə çalışır. Məhz bunun nəticəsidir ki, idman artıq ictimai həyatın mühüm tərkib hissəsinə çevrilib.

Sabah isə idman ictimaiyyəti - gənclər təşkilatları, idman klubları, federasiyalar öz bayramlarını qeyd edəcəklər. Bədən tərbiyəsi və idmanın inkişafı naminə yeridilən dövlət siyasəti düşünülmüş, məqsədyönlü olduğundan gözlənilən nəticələr alınır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## Aİ ABŞ-la ticarət müharibəsinə başlayır



Avropa İttifaqı (Aİ) metallurgiya məhsullarının idxalına rüsumlarla bağlı qərara görə üç ay ərzində ABŞ-a qarşı sanksiyalar tətbiq edə bilər. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Agentliyin Brüsseldəki mənbəyi bildirmişdir ki, Aİ ABŞ-la ticarəti balanslaşdırmaq üçün cavab tədbirləri üzərində işləyir. Avropaya okeanın o tərəfindən polad, sənaye və kənd təsərrüfatı məhsullarının gətirilməsinə məhdudiyyətlər qoyulması istisna edilmir.

Avropa Biznes Konfederasiyasının baş direktoru Markus Bayrer məsələ ilə əlaqədar demişdir: “Biz ticarət müharibəsi istəmirik. Lakin Aİ öz sənayesinin maraqlarını müdafiə etmək üçün Dünya Ticarət Təşkilatının (DTT) qaydaları çərçivəsində müvafiq tədbirlər görməlidir”.

Martın 1-də Amerika Prezidenti Donald Tramp bildirmişdir ki, onun dövləti polada 25 faizlik, alüminiuma isə 10 faizlik uzunmüddətli rüsum tətbiq edir. Bundan bir müddət əvvəl isə ABŞ lideri DTT-ni fəlakət adlandırmışdı.

## Tramp Rusiyaya qarşı sanksiyaların müddətini uzatdı

ABŞ Prezidenti Donald Tramp Ukrayna böhranı ilə əlaqədar Rusiyaya qarşı tətbiq olunmuş bir sıra sanksiyaların müddətini bir il uzatmışdır. Bu barədə Ağ evin mətbuat xidməti məlumat vermişdir.

2014-cü ilin martında Krımın ilhaqından sonra tətbiq edilmiş sanksiyalar o vaxtdan bəri hər il uzadılır.

Tramp administrasiyasının məlumatında deyilir ki, sanksiyalara səbəb olmuş Rusiya hökumətinin hərəkətləri düzəldilməmiş və indiyədək milli təhlükəsizliyə təhdid olaraq qalır. Ağ ev bu qərar barədə Amerika Konqresini məlumatlandıracaq.

ABŞ-ın sanksiya tədbirləri bütün 2014-cü il ərzində tətbiq edilirdi. Əvvəlcə martın 6-da ABŞ Prezidentinin imzaladığı fərmanla Ukraynanın suverenliyini və ərazi bütövlüyünü pozduğuna görə məsuliyyət daşıyan şəxslərə qarşı sanksiyalar tətbiq olunmuşdur. Martın 16-da Rusiyanın bir sıra vəzifəli şəxslərinin hesabları dondurulmuş, əmlaklarına həbs qoyulmuş və onlara viza verilməkdən imtina edilmişdir. Martın 20-də məhdudiyyətlərlə üzləşmiş yüksək vəzifəli şəxslərin siyahısı genişləndirilmişdir.

Həmin il dekabrın 19-da Krıma qarşı sanksiyalar tətbiq edilmişdir. Yarımadadan ABŞ-a mal və xidmət idxalı qadağa edilmişdir.

## ABŞ Suriyada terrorçular üçün qoruq yaradıb

“ABŞ-ın Suriyanın cənubunda, Tənf yaşayış məntəqəsində yaratdığı zonada terrorçular yenidən silahlanıb hazırlıq keçə biləcəklər”. Bu bəyanatla Rusiya müdafiə nazirinin müavini Aleksandr Fomin çıxış etmişdir.

“Tənf yaşayış məntəqəsi rayonunda 55 kilometr diametrli təhlükəsizlik zonası bizi narahat etməyə bilməz. Orada əslində, terrorçular üçün qoruq yaradılmışdır. Onlar yenidən silahlanır, hazırlaşır və həmin meydançadan müvafiq hücumlar həyata keçirirlər. Bütün bunlar ABŞ xüsusi təyinatlı qüvvələrinin rəhbərliyi altında baş verir”-deyə nazir müavini vurğulamışdır.

Fomin əlavə etmişdir ki, ABŞ Suriyadakı “Ruqban” qaçqın düşərgəsinə humanitar yardımı buraxmır. Bu səbəbdən həmin regionda gərgin humanitar vəziyyət yaranmışdır.

## Türk yazıçısının Dağlıq Qarabağla bağlı əsəri “Azərbaycan” jurnalında




Tanınmış Türkiyə yazıçısı Zeynalabidin Makasın “Muradı gözündə qalanlar” adlı əsərindən bir hissə Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı olan “Azərbaycan” jurnalının fevral sayında dərc edilib.

AZƏRTAC xəbər verir ki, Dağlıq Qarabağla bağlı əsərdə Xocalı faciəsinin ağrı-acıları da yer alıb. Əsərin jurnalda dərc olunan hissəsini Azərbaycan dilinə şair-tərcüməçi Qardaşxan Əzizxanlı çevirib.

## Atəşkəs rejimi 110 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 110 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Arif Paşayev və Hafiz Paşayev daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abid Şərifov ailə üzvləri ilə birlikdə Azərbaycan Respublikası daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Həsənov ailə üzvləri ilə birlikdə daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərişıq” ASC-nin sədri Baba Rzayev daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin rəhbərliyi daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli və agentliyin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və komitənin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC İH-nin sədri Əbülfət Qocayev daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nərimanov Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şahmar Usubov və Xocalı Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xocalı rayon ictimaiyyəti daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xocalı rayon təhsil, səhiyyə və mədəniyyət işçiləri daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xocalı rayon hüquq-mühafizə orqanlarının işçiləri daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Maliyyə Bazarlarına Nəzarət Palatasının kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Daxili İşlər Nazirliyinin təqaüddə olan əməkdaşı Oqtay Zeynalov daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətov və məhkəmənin kollektivi Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ceyhun Cəfərov və Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan “ qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan “ nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8916
Sifariş 572